# ELM

Qüvvət elmdədir...

Nizami Gəncəvi

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 16 (1498) ❖ Cümə, 8 may 2026-cı il ❖ Qəzet 1984-cü ildən nəşr olunur




# Azərbaycan-İtaliya strateji tərəfdaşlığı yeni mərhələdə

**Azərbaycan-İtaliya liderləri arasındakı yüksəksəviyyəli etimad və müntəzəm xarakter daşıyan təmaslar iki ölkənin bağlarını daha çevik və nəticəyönümlü müstəviyə daşıyır. Azərbaycan Prezidenti İlham Əliyev ilə İtaliyanın Nazirlər Şurasının sədri Ciorcia Meloni arasında formalaşan konstruktiv dialoq iki ölkənin həm regional, həm də qlobal maraqlarının strateji məqamlarda üst-üstə düşdüyünün ən aydın təzahürüdür.**

Mayın 4-də İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni Azərbaycan Respublikasına səfərə gəlib.

Həmin gün Prezident İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə təkbətək və geniş tərkibdə görüşləri keçirilib.

Prezident İlham Əliyev geniş tərkibli görüşdə çıxış edərək, iki ölkə arasındakı əlaqələrin yüksək səviyyəsini və gələcək inkişaf perspektivlərini diqqətə çatdırıb.

Dövlətimizin başçısı nümayəndə heyətinin Ermənistan səfərindən dərhal sonra Azərbaycana gəlməsini ölkəmizə olan dost münasibətin rəmzi göstəricisi kimi qiymətləndirib. Azərbaycanın da İtaliya ilə əlaqələrə böyük önəm verdiyini xatırladan Prezident İlham Əliyev, bu səfərin iki ölkə arasındakı strateji münasibətlərin dərinləşməsində həlledici rol oynayacağını xüsusi vurğulayıb. Sonda dövlət başçısı keçirilən görüşlərin və geniş tərkibdə davam etdirilən müzakirələrin əməkdaşlığı daha da möhkəmləndirəcəyinə əminliyini ifadə edib.

İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloni çıxışında Azərbaycana səfərindən məmnunluğunu ifadə edərək, ölkəmizin İtaliya üçün olduqca vacib bir tərəfdaş olduğunu bildirib. Hazırkı səfərin ikitərəfli əməkdaşlığın genişləndirilməsi baxımından zəruriliyini diqqətə çatdırıb. Sədr iki ölkə arasında enerji, infrastruktur, nəqliyyat-bağlantı və mədəniyyət kimi bir çox strateji sahələrdə dərin iş birliyinin mövcudluğunu qeyd edərək, bu əlaqələrin daha da gücləndirilməsi üçün böyük potensialın olduğunu bildirib. Azərbaycanın strateji tərəfdaş statusunu və regionlar arasında oynadığı mühüm körpü rolunu xüsusi qeyd edib.

Sonra Prezident İlham Əliyev və sədr Ciorcia Meloni mətbuata bəyanatlarla çıxış ediblər.

Dövlətimizin başçısı Azərbaycan və İtaliya arasında 2014-cü və 2020-ci illərdə strateji tərəfdaşlığa dair iki bəyannamə imzalandığını qeyd edərək, münasibətlərimizin əsasını təşkil edən sənədlərdə təsbit edilmiş məsələlərin bu gün həyatda da öz əksini tapdığını deyib: "İtaliya Azərbaycanın bir nömrəli ticarət tərəfdaşıdır. Keçən il bizim ticarət dövriyyəmiz təxminən 12 milyard dollar təşkil etmişdir. Təbii ki, əlaqələrimizin əsas istiqamətlərindən biri energetika sahəsində tərəfdaşlıqdır. Burada da biz uzun illər ərzində etibarlı tərəfdaşlar kimi bir-birimizi dəstəkləyirik. Azərbaycan İtaliyanın neft təchizatında ikinci yerdədir, qaz təchizatında da ikinci yerdədir".

Prezident İlham Əliyev qeyd edib ki, ötən il Azərbaycan 25 milyard kubmetr təbii qaz ixrac edib, onun 9,5 milyardı İtaliya bazarına ixrac olunub və bu həcmi artırmaq üçün hazırda müzakirələr aparılır.

Dövlətimizin başçısı Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP layihəsinin genişləndirilməsinin də vacibliyini vurğulayıb. Eyni zamanda, hərbi-texniki sahədə əməkdaşlığın da ümidverici olduğunu deyib.

Hazırda İtaliyanın 130-a yaxın şirkətinin Azərbaycanda fəaliyyət göstərdiyini, Qarabağda və Şərqi Zəngəzurda İtaliya şirkətlərinin 23 layihəsinin həyata keçirdiyini qeyd edən Prezident İlham Əliyev, biznes, kommersiya, ticarət əlaqələri və digər məsələlərlə yanaşı, təhsil sahəsinin də diqqətdə saxlanıldığını bildirib: "Keçən il Bakıda böyük təntənə ilə İtaliya-Azərbaycan Universiteti açılmışdır. Azərbaycanda təhsilin inkişafına bu universitetin çox böyük təsiri və töhfəsi olacaq. Bizə verilən məlumata görə, artıq 500-dən çox tələbə orada təhsil alır və gələcəkdə onlar həm peşəkar mütəxəssislər, həm də ki, Azərbaycanın İtaliyada və İtaliyanın Azərbaycanda təbii elçiləri olacaqlar. Beləliklə, bizim dostluğumuz bundan sonra inamla davam etdiriləcəkdir".

İtaliya Nazirlər Şurasının sədri bəyanatında ölkələrimiz arasındakı mövcud münasibətlərin onun üçün siyasi baxımdan xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb: "İtaliyanın Baş nazirinin Azərbaycana rəsmi səfərindən 13 il ötür. Düşünürəm ki, yaranmış bu qədər uzunmüddətli boşluğu doldurmalı idik. Bu, özünü nəinki ölkələrimizi bir-birinə bağlayan dostluq münasibətlərində, həmçinin İtaliya və Azərbaycan arasında çox mühüm əməkdaşlıqda göstərir. Bununla belə əlaqələrdə keyfiyyətcə böyük sıçrayış olub... Buradan gələcəyə aid prioritetləri birgə təyin edəcəyik".

Ciorcia Meloni əməkdaşlığımızı hər zaman səciyyələndirən sahələrdən birinin enerji sahəsi olduğunu qeyd edərək, Azərbaycanın Avropa ilə Asiya arasında fundamental qovşaq rolunun daha da möhkəmlənməsində maraqlı olduqlarını bildirib. Sədr İtaliyanın Azərbaycan üçün Avropa bazarına imtiyazlı giriş qapısı rolunu oynamağa hər zaman hazır olduğunu vurğulayıb. Bu strateji planın reallaşması üçün investisiyaların, uzunmüddətli proqramların və hər iki ölkənin sənaye sistemlərinin potensialının birləşdirilməsinin vacibliyini diqqətə çatdırıb. Bu məqsədlə, siyasi əməkdaşlığı biznes və sahibkarlar üçün konkret fürsətlərə çevirmək adına 2026-cı ilin ikinci yarısında Bakıda biznes-forumun təşkil edilməsi qərara alınıb.

Ciorcia Meloni müdafiə, təhlükəsizlik, aerokosmik sənaye və mühüm infrastrukturun mühafizəsi kimi sahələrdə əməkdaşlığı dərinləşdirmək niyyətində olduqlarını bəyan edib. İtaliyanın bu istiqamətdə model təklif etdiyini qeyd edərək, sənaye sistemləri arasında bilik mübadiləsi və birgə inkişafa əsaslanan xüsusi tərəfdaşlığın, sıx iş birliyinin həm də regional sabitliyə mühüm töhfə verəcəyinə inandığını vurğulayıb. Sonda C.Meloni İtaliyanın Azərbaycanla mövcud tərəfdaşlığını yüksək qiymətləndirərək, bu əlaqələrin uzunmüddətli və strateji xarakter daşıdığını xüsusi qeyd edib.

İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloninin Azərbaycan Respublikasına işgüzar səfəri mayın 4-də başa çatıb.

# Azərbaycançılıq məfkurəsinin təşəkkülü kontekstində Ümummilli Lider Heydər Əliyevin missiyası və miqyası



**Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin növbəti iclası keçirilib.**

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri, AMEA-nın Rəyasət Heyəti aparatının şöbə müdirləri, elmi müəssisə və təşkilatların direktorları və aidiyyəti şəxslər iştirak ediblər.

İclasda müzakirəyə çıxarılan ilk məsələ **akademik İsa Həbibbəylinin** "Azərbaycançılıq məfkurəsinin təşəkkülü kontekstində Ümummilli Lider Heydər Əliyevin missiyası və miqyası" mövzusunda məruzəsi olub.

AMEA rəhbəri qeyd edib ki, Sovet Azərbaycanı dövründə ölkəyə rəhbərlik edən Ulu Öndər Heydər Əliyev Kommunist Partiyası Mərkəzi Komitəsinin beynəlmiləlçilik ideyasını ön plana çəkdiyi, vahid sovet xalqı anlayışını formalaşdırmağa çalışdığı bir vaxtda ölkəmizdə Azərbaycançılıq siyasətini həyata keçirirdi. Onun rəhbərliyi ilə yazıçı və şairlərin yubileyləri keçirilir, bu tədbirlər Kreml səviyyəsində qeyd olunur, hətta Nəsiminin yubileyi UNESCO səviyyəsində keçirilmişdi. Bir çox yazıçı, şair, bəstəkar və alim yüksək fəxri adlara layiq görülür, Azərbaycanda hərbi məktəblər açılır və bu kimi addımlar milli özünüdərkin güclənməsinə xidmət edirdi.

Ulu Öndərin bununla da xalqımızı gələcək müstəqil dövlətçiliyə hazırladığını deyən akademik İsa Həbibbəyli bildirib ki, 1978-ci ildə Azərbaycan dilinin dövlət dili kimi Konstitusiyaya daxil edilməsi dahi liderin həmin dövrdəki rəhbərliyi zamanı azərbaycançılıq siyasətinin zirvəsi hesab oluna bilər.

Natiq diqqətə çatdırıb ki, keçid dövründə də Ulu Öndər azərbaycançılıq ideyasına və milli istiqlal uğrunda mübarizəyə böyük töhfələr verib, 1990-cı ilin 21 yanvarında ailə üzvləri ilə, cənab İlham Əliyevlə birgə Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək sovet qoşunlarının Bakıda törətdiyi vəhşiliklərə qarşı dünya qarşısında açıq bəyanatla çıxış etməsi Azərbaycanın müstəqil dövlətçiliyi yolunda mühüm dönüş nöqtəsi idi.

"Dahi liderin Naxçıvanda Ali Məclisin sədri olarkən üçrəngli Azərbaycan bayrağının sovet bayrağı əvəzinə qaldırılması da böyük cəsarət nümunəsi idi. 1990-cı ilin 17 noyabrında bu addım atılmış və bu hadisə SSRİ-nin dağılmasından əvvəl baş vermiş nadir və tarixi addımlardan biri olmuşdur. Heydər Əliyev həm Sovet Azərbaycanının rəhbəri kimi, həm də müstəqil Azərbaycanın lideri kimi xalqımızı parçalanmaq təhlükəsindən xilas etmiş, ölkəmizin bütövlüyünü təmin etmiş, müstəqil dövlətin iqtisadi, siyasi, elmi, mədəni və sosial əsaslarını qurmuş və "Azərbaycanın müstəqilliyi əbədidir" demişdir", - deyə məruzədə vurğulanıb.

Akademik İsa Həbibbəyli bildirib ki, Ulu Öndərin müstəqillik dövründəki ən böyük xidmətlərindən biri də "Dünya azərbaycanlıları" anlayışını siyasi gündəmə gətirməsi olmuşdur. Məruzəçi qeyd edib ki, "Dünya azərbaycanlıları" anlayışı haqqında nə elmdə, nə siyasətdə aydın bir konsepsiya yox idi və bu ideyanı Azərbaycanın siyasi gündəminə və ictimai mühitinə, dövlətçilik təfəkkürünə məhz Ümummilli Lider Heydər Əliyev gətirmişdir. Akademikin sözlərinə görə, Ulu Öndərin hələ Naxçıvanda Ali Məclis sədri olarkən Dünya Azərbaycanlılarının Həmrəylik Gününün qeyd olunması haqqında qəbul etdiyi qərar bunun canlı bir nümunəsidir və Azərbaycanda ikinci dəfə hakimiyyətə gələrkən Dünya Azərbaycanlılarının Birinci Qurultayını çağırması və qurultayda dərin məzmunlu çıxış etməsi müstəqil Azərbaycan dövlətçiliyinə və Azərbaycançılıq siyasətinin inkişafına göstərdiyi tarixi xidmət idi.

"Dahi lider özünə qədər ədəbiyyatda, incəsənətdə, mədəniyyətdə, elmdə, ictimai fikirdə səslənən azərbaycançılıq anlayışını müstəqil Azərbaycanın dövlət ideologiyası səviyyəsinə qaldırdı. "Azərbaycan dili" və "Azərbaycan xalqı" anlayışlarının dəqiq şəkildə müəyyənləşdirilməsi də onun mühüm xidmətlərindəndir. O, Azərbaycan dilinin dövlət dili kimi mövqeyini qətiyyətlə müdafiə etmiş və "Azərbaycan xalqı" anlayışı ilə ölkədə yaşayan bütün xalqları vahid bir dil ailəsi ətrafında birləşdirmişdir. "Azərbaycan xalqı" anlayışı, "Azərbaycan dili" anlayışı kimi, xalqımızın ümumi adı mənasını ifadə edir və bu coğrafiyada birlik, sabitlik və bərabərliyin təmin olunması baxımından mühüm rol oynayır. Bu baxımdan "Azərbaycan dili", "Azərbaycan xalqı" və "Azərbaycançılıq" dövlət ideologiyası anlayışlarının müəllifi və yaradıcısı Ulu Öndər Heydər Əliyev olmuşdur. Bizim cəmiyyətimiz üçün bu anlayışlar dövlətçilik baxımından mühüm əhəmiyyət kəsb edir", - deyə AMEA rəhbəri bildirib.

O qeyd edib ki, bu ideyalar ölkəmizin iqtisadi, sosial və siyasi inkişafının əsasında dayanan sabitliyin təməlini təşkil edir və ona görə də biz bu gün Ulu Öndəri müstəqil Azərbaycanın memarı hesab edərkən məhz bu böyük və fundamental prinsipləri nəzərdə tuturuq. Alim vurğulayıb ki, Azərbaycanda ümummilli lider anlayışı hər hansı bir xalqın, xalqların və ya bir siyasi partiyanın lideri olmaq demək deyil, bu anlayış bütün xalqı, bütün cəmiyyəti özündə birləşdirən bir lideri ifadə edir. Onun sözlərinə görə, ümummilli lider dedikdə, xalqın bütün təbəqələri, sosial və etnik qrupları tərəfindən qəbul olunan və eyni zamanda bütün siyasi qüvvələr tərəfindən tanınan lider nəzərdə tutulur və məhz bu mənada Heydər Əliyev Azərbaycan xalqının Ümummilli Lideridir.

Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ulu Öndərin müəyyən etdiyi yolu XXI əsrin reallıqlarına uyğun şəkildə inkişaf etdirdiyini deyən akademik İsa Həbibbəyli Ali Baş Komandanın Vətən müharibəsində qazandığı tarixi zəfəri Azərbaycan tarixinin ən böyük hadisələrindən biri kimi qiymətləndirib: "Ümummilli Lider Heydər Əliyevin qoyduğu əsaslar üzərində Prezident İlham Əliyevin ölkəmizin ərazi bütövlüyünü tam təmin etməsi, vaxtilə Ulu Öndərin 1990-cı ilin 17 noyabrında siyasi səhnəyə gətirdiyi üçrəngli bayrağı Azərbaycanın bütün ərazisində dalğalandırması dövlətçiliyə, lider yoluna, müstəqil Azərbaycanın inkişafına təkrarolunmaz xidmətdir və bu tarixi xidmətlər Ali Baş Komandan İlham Əliyevin adı ilə bağlıdır".

Qarabağ probleminin həlli istiqamətində Ulu Öndərin çox danışıqlar apardığını, hətta Lissabon sammitində çıxış edərkən bizi ərazi bütövlüyümüzün təmin olunmasına çox yaxınlaşdırdığını deyən AMEA rəhbəri məkrli qüvvələrin, qısqanc yanaşan dairələrin yaratdığı əngəllərin o zaman buna mane olduğunu söyləyib.

Bu gün Azərbaycanın bütün ərazisində Azərbaycan bayrağının dalğalandığını bildirən akademik İsa Həbibbəyli bu hadisənin min illər keçsə də, Heydər Əliyev-İlham Əliyev epoxasının tarixi hadisəsi kimi qəbul olunacağını vurğulayıb. Qeyd edib ki, İlham Əliyev Azərbaycan Prezidenti olaraq Qalib Xalqın Qalib Lideri kimi tarixdə öz yerini tutmuşdur və bu gün də Ermənistan-Azərbaycan sülh müqaviləsinin imzalanması istiqamətində atılan addımlar, həyata keçirilən siyasi gedişlər, indiki çətin geosiyasi şəraitdə bu istiqamətdə düşünülmüş proqramın addım-addım icra olunması bizə əsas verir ki, ölkəmizin Prezidenti bu böyük vəzifəni də yerinə yetirəcək.

"Biz inanırıq ki, ölkəmizin Prezidenti İlham Əliyev Ulu Öndər Heydər Əliyevin başladığı azərbaycançılıq təlimini, ideologiyasını və ideallarını rəhbər tutaraq onları daha da inkişaf etdirəcək, zənginləşdirəcək və xalqımızı böyük məqsədlərə çatdıracaqdır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da əməyini, zəhmətini, dəstəyini və yaratdığı bütövlük anlayışını yüksək qiymətləndirməyi özümə borc bilirəm. Məhz onun rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən sosial və iqtisadi proqramlar ölkəmizin sürətli və hərtərəfli inkişafının konkret ifadəsidir.

İnanırıq ki, Ulu Öndərin ən çox sevdiyi şeir kimi Səməd Vurğunun "Azərbaycan" şeirini qeyd etməsi, ən çox sevdiyi poema kimi Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" əsərini vurğulaması, ədəbiyyatda azərbaycançılığın ən böyük nümayəndələrindən biri kimi Cəlil Məmmədquluzadəni göstərməsi onun başladığı böyük işin və qoyduğu ideallarin bu gün etibarlı əllərdə olduğunu göstərir", - deyə akademik İsa Həbibbəyli diqqətə çatdırıb.

AMEA rəhbəri vurğulayıb ki, Prezident İlham Əliyev bu gün dünyanın gözü qarşısında qüdrətli Lider kimi, Qalib Xalqın Qalib Lideri kimi Azərbaycanı irəli aparır və dövlətimiz artıq öz inkişafının tamamilə yeni mərhələsinə qədəm qoymuşdur. Dövlət başçımızın apardığı uğurlu siyasət nəticəsində "Böyük Qayıdış" proqramı da uğurla həyata keçirilir və bu proqram həm də Azərbaycanda yeni inkişaf mərhələsinin başlanması deməkdir. Bu, azərbaycançılıq ideyalarının daha da dərinləşməsi, ərazi bütövlüyünün və məskunlaşmanın möhkəmlənməsi, sosial, iqtisadi, siyasi və hərbi qüdrətimizin yeni mərhələyə yüksəlməsi deməkdir.

Akademik İsa Həbibbəyli məruzəsinin sonunda qeyd edib ki, Azərbaycan alimləri indiyə qədər olduğu kimi, bundan sonra da Heydər Əliyev-İlham Əliyev epoxasının ideallarını öz işlərində rəhbər tutacaq, cənab Prezidentin rəhbərliyi ilə ölkəmizdə aparılan bütün sahələrdəki işlərə öz dəstəyini verməyi şərəfli borc hesab edəcəkdir.

Məruzə dinlənildikdən sonra mövzu ətrafında müzakirələr aparılıb, Rəyasət Heyəti tərəfindən müvafiq qərar qəbul edilib.

Daha sonra iclasda bir sıra elmi təşkilati məsələlər müzakirə olunub.

Müzakirəyə çıxarılan məsələ "Heydər Əliyev Ensiklopediyası"nın çapa hazırlanması haqqında olub.

Məsələ ilə bağlı çıxış edən akademik İsa Həbibbəyli qeyd edib ki, Rəyasət Heyəti tərəfindən ötən müddət ərzində "Heydər Əliyev Ensiklopediyası"nın hazırlanmasına dair müvafiq qərarlar qəbul edilib, əsas icraçı qurum kimi "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi müəyyən olunub. Belə ki, Elmi Mərkəz tərəfindən 12 bölmə üzrə ensiklopediyanın sözlüyü hazırlanaraq Rəyasət Heyətinin qərarı ilə yaradılmış komissiya tərəfindən geniş müzakirə olunub. AMEA rəhbəri vurğulayıb ki, təqdim olunmuş sözlük Rəyasət Heyəti tərəfindən təsdiq edilib və bunun əsasında "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin əməkdaşları "Heydər Əliyev Ensiklopediyası"nı hazırlamağa başlayıblar.

Qısa müddət ərzində Mərkəz tərəfindən "Heydər Əliyev Ensiklopediyası"nın yüksək səviyyədə hazırlandığını deyən akademik İsa Həbibbəyli ensiklopediyanın ilkin variantını iclas iştirakçılarına təqdim edib. Qeyd edib ki, "Heydər Əliyev Ensiklopediyası" hazırda redaktə mərhələsindədir və üç aylıq son tamamlama işlərindən sonra "Elm" nəşriyyatı tərəfindən yüksək keyfiyyətlə çap olunaraq ictimaiyyətə təqdim ediləcək.

Akademik İsa Həbibbəyli "Heydər Əliyev Ensiklopediyası"nı qısa müddətdə və yüksək keyfiyyətdə hazırladıqlarına görə AMEA-nın vitse-prezidenti, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin direktoru akademik Tofiq Nağıyevə və Mərkəzin əməkdaşlarına təşəkkür edib.

"Heydər Əliyev Ensiklopediyası"nın yüksək səviyyədə çapa hazırlanması haqqında Rəyasət Heyəti tərəfindən qərar qəbul olunub.

İclasda müzakirə edilən növbəti məsələ Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünün qeyd edilməsinə hazırlığın vəziyyəti haqqında olub. Akademik İsa Həbibbəyli qeyd edib ki, may ayının 7-də AMEA-nın Rəyasət Heyətində AMEA-nın Gənclər Akademiyası ilə birgə Ulu Öndərə həsr olunmuş tədbir keçiriləcək və gənc alimlər təqdimatlarla çıxış edəcəklər.

Akademik İsa Həbibbəyli AMEA-nın bütün elmi müəssisə və təşkilatlarında Ulu Öndərin həyatının və zəngin fəaliyyətinin çoxcəhətli aspektlərini əhatə edən elmi konfransların, elmi sessiyaların keçirilməsi və sərgilərin təşkili ilə bağlı tapşırıqlar verib.

Daha sonra iclasda Azərbaycan Respublikası Prezidentinin Fərman və sərəncamlarının 2025-ci il üzrə AMEA-da icra vəziyyəti haqqında AMEA-nın akademik-katibi akademik Arif Həşimov məlumat verib və Akademiyada dövlət başçısının tapşırıqlarının vaxtında və məsuliyyətlə yerinə yetirildiyini bildirib.

Rəyasət Heyətinin iclasında, həmçinin AMEA-nın Gənclər Akademiyasının loqotipi təsdiq edilib. Akademik İsa Həbibbəyli vurğulayıb ki, Gənclər Akademiyasının fəaliyyət istiqamətlərində baş verən dəyişikliklərə və müasir informasiya cəmiyyətinin tələblərinə uyğun şəkildə qurulması məqsədilə vahid vizual quruluşa malik, qrafik təsvir kimi xarakterizə olunan fərqləndirici işarənin - loqotipin (emblem) yaradılması zərurəti meydana çıxıb və bu səbəbdən AMEA-nın Gənclər Akademiyası tərəfindən yeni loqotip (emblem) hazırlanıb. Loqotipdə istifadə olunan rənglər və simvollar ənənə ilə müasirliyin harmoniyasını, biliklə yaradıcılığın vəhdətini və gələcəyə yönəlmiş dinamik elmi inkişaf konsepsiyasını vizual olaraq ifadə edir.

Qeyd olunanları nəzərə alaraq, Rəyasət Heyəti tərəfindən AMEA-nın Gənclər Akademiyasının yeni loqotipi təsdiq edilib.

İclasda, həmçinin AMEA-nın elmi müəssisə və təşkilatlarında yaradılan rəqəmsallaşma və süni intellektlə bağlı şöbələrin nümunəvi əsasnaməsinin təsdiq edilməsi məsələsinə baxılıb.

AMEA rəhbəri vurğulayıb ki, son illərdə Akademiyada rəqəmsallaşma və süni intellekt sahəsində mühüm addımlar atılır və həyata keçirilən yeniləşmə islahatlarının əsas istiqamətlərindən birini təşkil edir. Qeyd edib ki, son illərdə həyata keçirilən tədbirlər nəticəsində AMEA-nın Elektron arxitekturası formalaşdırılıb, Akademiyanın bütün institutlarında, regionlarda yerləşən Elmi Bölmələrində və Mərkəzlərində Rəqəmsal elm sahəsi və süni intellekt şöbələri yaradılıb. Bildirib ki, rəqəmsallaşma və süni intellektlə bağlı şöbələrin nümunəvi əsasnaməsinin təsdiq edilməsi onların gələcək fəaliyyətlərinin inkişafına öz töhfəsini verəcək. Akademik İsa Həbibbəyli, o cümlədən institutlarda rəqəmsallaşma və süni intellekt üzrə direktor müavinlərinin təyin olunma prosesinin başa çatmaqda olduğunu deyib.

Qeyd olunanları nəzərə alaraq, Rəyasət Heyəti tərəfindən AMEA-nın elmi müəssisə və təşkilatlarında yaradılan rəqəmsallaşma və süni intellektlə bağlı şöbələrin nümunəvi əsasnaməsi təsdiqlənib.

İclasda qeyd olunan məsələlər ətrafında **akademik Rasim Əliquliyev, akademik İradə Hüseynova, akademik Gövhər Baxşəliyeva, akademik Arif Həşimov, AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə, professor Kərim Şükürov, dosent Elmir Babayev** və başqaları çıxış edərək fikir və təkliflərini səsləndiriblər.

# Heydər Əliyev və kitabxana işinin təşkili




**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasında (MEK) Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Kitabxanaşünaslığın aktual problemləri" mövzusunda II respublika elmi konfransı keçirilib.**

Öncə konfrans iştirakçıları Ümummilli Lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq, əziz xatirəsini dərin hörmət və ehtiramla yad ediblər.

Tədbirdə Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri giriş sözü ilə açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli konfransın Ulu Öndər Heydər Əliyevin Azərbaycan kitabxana işinin tərəqqisi naminə göstərdiyi misilsiz xidmətlərə, müasir kitabxana quruculuğunun ilkin mərhələsində bu sahənin canlandırılmasına verdiyi töhfələrə həsr olunduğunu qeyd edərək, konfransın əhəmiyyətini yüksək qiymətləndirib.

Akademik İsa Həbibbəyli Ulu Öndər Heydər Əliyevin milli dövlətçilik tariximizdəki xilaskarlıq rolunu vurğulayaraq, dahi rəhbərin ölkənin ən çətin zamanında Azərbaycanda daxili sabitliyi bərqərar etdiyini və uzaqgörən xarici siyasəti sayəsində dövlətin prioritet istiqamətlərini dəqiqliklə müəyyənləşdirdiyini diqqətə çatdırıb.

AMEA rəhbəri Qarabağ münaqişəsinin davam etdiyi ərəfədə məhz Heydər Əliyevin qətiyyətli diplomatik gedişləri ilə Azərbaycanın dünya birliyi tərəfindən müdafiə olunmasına və ölkəmizin haqlı mövqeyinin tanınmasına nail olduğunu qeyd edərək, 1996-cı ilin dekabrında Portuqaliyanın paytaxtı Lissabon şəhərində keçirilən ATƏT-in sammitində münaqişənin ədalətli şəkildə nizama salınmasının baza prinsiplərinin bu tarixi görüşdə müəyyən edildiyini deyib. Qeyd edib ki, yaxın tariximizdə Qarabağın işğaldan azad edilməsinə qədər keçən müddət ərzində Ulu Öndər Heydər Əliyevin bu siyasi kursu uğurla davam etdirilib, nəticədə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev xalq birliyi ilə şanlı qələbəyə imza atıb. Bidirib ki, Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış tarixi Zəfər Azərbaycan tarixinin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, ölkəmizin inkişafında yeni mərhələnin başlanğıcını qoyub. Prezident İlham Əliyev hazırda Qalib Xalqın Qalib Lideri kimi Azərbaycanı inamla irəli aparır.

Çıxışında Akademiya rəhbəri bildirib ki, Ümummilli Lider Heydər Əliyevin fəaliyyətində elm, təhsil və mədəniyyət sahələrinin inkişafı xüsusi yer tutub və bu istiqamətlər dövlətin intellektual potensialının əsas dayaqları kimi daim diqqət mərkəzində olub. Sovet dövründə Azərbaycan ziyalılarına göstərilən yüksək qayğı və onların dövlət səviyyəsində dəstəklənməsi bu siyasətin mühüm tərkib hissəsi idi. Bu ənənə bu gün də uğurla davam etdirilir. Prezident İlham Əliyevin AMEA-ya səfəri və elmi ictimaiyyət qarşısında proqram xarakterli çıxışı Azərbaycan elminə və ziyalılara göstərilən diqqətin bariz ifadəsidir.



Akademik İsa Həbibbəyli qeyd edib ki, müasir dövrdə rəqəmsal cəmiyyətin sürətli inkişafı, Dördüncü Sənaye İnqilabının çağırışları, süni intellekt və yeni texnologiyalar elmi və informasiya mühitində yeni yanaşmalar tələb edir. Bu baxımdan AMEA-da struktur dəyişikliklərinin aparılması, o cümlədən müvafiq bölmələrin rəqəmsal inkişaf və süni intellekt istiqamətində yenidən təşkili dövrün tələblərindən irəli gəlir.

Sonda akademik İsa Həbibbəyli Mərkəzi Elmi Kitabxananın təşkilatçılığı ilə keçirilən bu konfransın həm Azərbaycançılıq ideologiyasının təbliği, həm də rəqəmsal inkişaf, süni intellekt və elmin aktual problemlərinin müzakirəsi baxımından mühüm əhəmiyyət daşıyaraq kitabxanaçıların yeni dövrün tələblərinə uyğun hazırlanmasına töhfə verəcəyinə əminliyini ifadə edib.

MEK-in direktoru texnika elmləri doktoru Hüseyn Hüseynov "Heydər Əliyev və Azərbaycanda kitabxana işinin inkişafı" adlı məruzəsi ilə çıxış edib. Hüseyn Hüseynov MEK-in II Respublika konfransında iştirak edən hər kəsi salamlayaraq qeyd edib ki, Azərbaycan xalqının zəngin mədəni irsinin qorunması və gələcək nəsillərə ötürülməsində kitabxanalar mühüm rol oynayıb və bu sahənin inkişafı birbaşa Ulu Öndərin adı ilə bağlı olub. Onun rəhbərliyi dövründə kitabxana şəbəkəsi genişləndirilib, yeni kitabxanalar yaradılıb, ixtisaslı kadr hazırlığı gücləndirilib və kitabxana işi dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrilib. Müstəqillik illərində isə Heydər Əliyevin uzaqgörən qərarları nəticəsində kitabxanalar qorunub, bu sahənin hüquqi bazası daha da möhkəmləndirilib.

Direktor vurğulayıb ki, Ulu Öndərin müəyyən etdiyi strateji inkişaf xətti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilib, kitabxanaların fəaliyyəti müasir dövrün tələblərinə uyğun yenilənib və onların maddi-texniki bazası gücləndirilib. AMEA Mərkəzi Elmi Kitabxanası da bu siyasətə uyğun olaraq Heydər Əliyev irsinin tədqiqi və təbliğini daim diqqət mərkəzində saxlayır, zəngin fondlar, nəşrlər və elmi təşəbbüslərlə oxuculara xidmət göstərir. Hüseyn Hüseynov əminliklə bildirib ki, keçirilən bu konfrans kitabxanaşünaslıq sahəsində aktual məsələlərin müzakirəsinə və yeni yanaşmaların formalaşmasına mühüm töhfə verəcək və iştirakçılara uğurlar arzulayıb.

Konfransda Prezident Kitabxanasının direktoru fil.e.d., professor Afət Abbasova, BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı fil.ü.f.d, dosent Ələmdar Bayramov, YAP Yasamal rayon təşkilatının məsləhətçisi Fuad Həbibzadə çıxış edərək kitabxanaşünaslıq elminin tədqiqinə, aktual problemlərinin müzakirəsinə ehtiyacın olduğunu və bu sahənin inkişafına töhfəsini verəcəyini bidiriblər

Daha sonra konfrans öz işini "Heydər Əliyevin Azərbaycanda kitab və kitabxana işinin inkişafında rolu", "Rəqəmsallaşma şəraitində kitabxana fondlarının formalaşdırılması və idarə olunması", "Elm-kitabxana-cəmiyyət qarşılıqlı əlaqədə", "Korporativ kitabxana sistemlərinin, süni intellekt və yeni texnologiyaların kitabxanaların fəaliyyətinə tətbiqi" kimi mövzularda bölmələrlə davam etdirib.

***

***Qeyd edək ki, AMEA-nın bütün elmi-tədqiqat müəssisələri və təşkilatlarında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş silsilə tədbirlər keçirilir.***

# II Beynəlxalq Şah İsmayıl Xətai Konfransı



**Mayın 4-də AMEA-nın Mərkəzi Elmi Kitabxanasında A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu və Türkiyənin Mərmərə Universitetinin Türkiyat Araşdırmalar İnstitutunun birgə təşkilatçılığı ilə görkəmli medievist-alim Oqtay Əfəndiyevin 100 illik yubileyinə həsr olunmuş II Beynəlxalq Şah İsmayıl Xətai konfransı işə başlayıb.**

Konfransı açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli son illərdə AMEA-da həyata keçirilən islahatlardan birinin də ədəbi, tarixi şəxsiyyətlərə müstəqillik dövründə azərbaycançılıq ideyası işığında yenidən qayıdış prosesi olduğunu söyləyib.

Akademiya rəhbəri Ulu Öndərin Azərbaycana birinci rəhbərliyi dövründə İmadəddin Nəsiminin, Nizami Gəncəvinin yubileylərinin yüksək səviyyədə qeyd olunduğunu vurğulayıb. O bildirib ki, Prezident İlham Əliyev ölkəmizdə milli-mənəvi dəyərlərin qorunması, yaşadılması, ədəbi şəxsiyyətlərə, tarixi simalara hörmət və ehtiramın göstərilməsi, onların irsinin öyrənilməsi istiqamətində aydın bir siyasəti uğurla həyata keçirir. İsa Həbibbəyli konfransın dövlət siyasətimizə uyğun olaraq, tarixi şəxsiyyətlərimizə qayıdışın bir parçası olduğunu diqqətə çatdırıb. Akademik bildirib ki, Səfəvi dövləti haqqında sanballı əsər ilk dəfə professor Oqtay Əfəndiyev tərəfindən yazılıb, lakin ondan sonrakı dövrdə indiyə kimi ayrıca olaraq Şah İsmayıl Xətai haqqında əhəmiyyətli bir kitab ərsəyə gətirilməyib.

İsa Həbibbəyli Azərbaycanda səfəvişünaslıq məktəbinin banisinin professor Oqtay Əfəndiyev olduğunu vurğulayıb. Qeyd edib ki, onun "Azərbaycanda Səfəvilər dövləti" kitabı ilə Səfəvilərin nəsil şəcərəsi, dövlət kimi formalaşması, inkişafının bütün istiqamətləri barədə ilk dəfə cəmiyyətə məlumat təqdim olunub, Səfəvilərin Azərbaycan dövləti olması tutarlı elmi faktlar əsasında sübut edilib.

Tədbirdə çıxış edən Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar Oqtay Əfəndiyevin erkən yaşdan atasını və bacısını itirdiyini qeyd edib. O, görkəmli alimlə sağlığında yaxın qardaş kimi münasibətdə olduqlarını, onun gənc yaşlarından elmə, xalqına fayda verəcək böyük işlərə can atdığını söyləyib: "Oqtay Əfəndiyevin sağlığında ona həsr etdiyim "Bir əsrin arxayınlığı" məqaləsini yazmışdım. Çünki onun rəsmi mənbələr, sənədlər əsasında hazırladığı "Azərbaycanda Səfəvilər dövləti" kitabı bizə tariximizin XVI əsrinə dair arxayınlıq verir və həqiqətə uyğun olduğu üçün məqaləmi belə adlandırmışam. Xətainin türkcə şeirləri, Səfəvi saraylarında türkcənin hakim dil olması, "Sizə Gülüstan qalası lazımdır, ya Azərbaycan" ifadəsi, bütün bunlar hamısı göstərir ki, Səfəvi Azərbaycan dövləti olub.

Konfransda AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun direktoru professor Kərim Şükürov görkəmli alim Oqtay Əfəndiyevin elmi fəaliyyətinə toxunub. O qeyd edib ki, alimin "Azərbaycan Səfəvi dövləti" adlı kitabı türk dilinə tərcümə edilərək Türkiyədə nəşr olunub və geniş oxucu kütləsi tərəfindən maraqla qarşılanıb. Kərim Şükürov Oqtay Əfəndiyevin elmi məktəbinin layiqincə davam etdirildiyini söyləyib. Bildirib ki, alimin Səfəvilər dövlətinə dair müxtəlif dillərdə çap olunmuş çoxsaylı elmi məqalələri də mövcuddur.

Tədbirə onlayn qoşulan Mərmərə Universitetinin Türkiyat Araşdırmalar İnstitutunun müdiri professor İlyas Kamaloğlu konfransın ölkələrimizin tarixinə işıq salacağını, birgə elmi əməkdaşlığımızı daha da dərinləşdirəcəyini söyləyib.

Sonda çıxış edən Oqtay Əfəndiyevin qızı dosent Vəfa Əfəndizadə Tezcan atasının xatirəsinə göstərilən diqqət və ehtirama görə akademiya rəhbərliyinə minnətdarlığını bildirib.

Qeyd edək ki, konfransda Azərbaycan tarixçiləri ilə yanaşı, Türkiyə və Özbəkistandan 30-a yaxın alim məruzələrlə çıxış edəcək. İki bölmədə fəaliyyət göstərəcək konfransda dinləniləcək məruzələr arasında Oqtay Əfəndiyevin Azərbaycan Səfəvişünaslığının yaranması və inkişafında rolu, Şah İsmayıl Xətainin siyasi fəaliyyəti, Səfəvi dövlətinin təşəkkülü, sosial-iqtisadi strukturlar, diplomatik münasibətlər, eləcə də ədəbi və mədəni irs kimi mövzular müzakirə olunacaq.

Konfrans mayın 5-də başa çatıb.

# Görkəmli dilçi-alim Tofiq Hacıyevin 90 illik yubileyi

**Mayın 4-də AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun təşkilatçılığı ilə görkəmli dilçi-alim, Əməkdar elm xadimi, akademik Tofiq Hacıyevin anadan olmasının 90 illik yubileyinə həsr edilmiş tədbir keçirilib.**



Əvvəlcə Tofiq Hacıyevin zəngin elmi irsini əks etdirən kitablarından ibarət sərgi nümayiş olunub.

Sonra Tofiq Hacıyevin həyat və yaradıcılığına həsr olunmuş film nümayiş etdirilib.

Tədbiri açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli akademik Tofiq Hacıyevin Türk dünyası miqyasında tanınan görkəmli alim, eyni zamanda, milli təfəkkürə malik parlaq bir şəxsiyyət olduğunu deyib. AMEA rəhbəri akademik Tofiq Hacıyevin sovet dönəmində yetişən alimlərdən olsa da, hər zaman azərbaycançılıq məfkurəsini bütün dəyərlərdən üstün tutduğunu, Ulu Öndər Heydər Əliyevin dövlətçilik ideyalarına sadiq bir ziyalı kimi birliyin qoruyucularından olduğunu qeyd edib.

Akademik vurğulayıb ki, alimin fundamental xarakter daşıyan ikicildlik "Azərbaycan ədəbi dili tarixi" əsəri özünəqədərki dövrdə bu istiqamətdə yazılmış bütün tədqiqatların zirvəsində dayanmaqla yanaşı, dilimizin inkişaf mərhələlərini tam dolğunluğu ilə ümumiləşdirir: "Tofiq Hacıyev milli-mənəvi varlığımız olan dilimizin tarixini ədəbiyyat tariximizdən ayırmamış, bu vəhdəti öz yaradıcılığının ana xəttinə çevirmişdir. Məhz bu səbəbdən onun əsərləri təkcə dilçilik baxımından deyil, həm də ədəbiyyat tariximizin möhtəşəm salnaməsi kimi qəbul olunur".

Akademik İsa Həbibbəyli görkəmli alimin yaradıcılığında yer alan Məhəmməd Füzuli və Mirzə Ələkbər Sabir irsinə dair əsərləri onun elmimizə mühüm töhfəsi kimi qiymətləndirib.

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru professor Nadir Məmmədli akademik Tofiq Hacıyevin səmərəli elmi fəaliyyətindən, respublikamızda dilçilik elminin inkişafına verdiyi töhfələrdən danışıb. Bildirilib ki, alim zəngin elmi fəaliyyəti ilə Azərbaycan dilçilik elminin inkişafında müstəsna rol oynayıb və bütün ömrünü bu sahəyə həsr edib.

Tədbirdə akademik Nizami Cəfərov, professorlar Qəzənfər Paşayev, Elbrus Əzizov, İsmayıl Kazımov, filologiya elmləri doktorları Qızılgül Abdullayeva, Qətibə Quliyeva, filologiya üzrə fəlsəfə doktoru Sevda Sadıqova məruzələrlə çıxış ediblər.

Bakı Dövlət Universitetinin kafedra müdiri professor Qulu Məhərrəmli çıxışında Tofiq Hacıyevin dönəmində Dilçilik İnstitutu ilə mətbuat arasında sıx əlaqə yarandığını, yeni şöbələrin açıldığını qeyd edib.

Sonda ailə üzvləri adından çıxış edən mərhumun oğlu Azər Hacıyev tədbirin təşkilinə görə AMEA rəhbərliyinə təşəkkürünü bildirib.

# Heydər Əliyevin Naxçıvanda xilaskarlıq missiyası və Türkiyə ilə münasibətlər (1991-1993)

**SSRİ tərkibində müttəfiq respublika sayılan Azərbaycanda 1980-ci illərin sonlarında olduqca ağır siyasi vəziyyət yaranmışdı. Sovetlər Birliyinin tərkib hissəsi olan Ermənistanda Azərbaycana qarşı qaldırılan əsassız ərazi iddiaları tədricən əməli müstəviyə keçmiş, həm Azərbaycanın Qarabağ bölgəsində separatizm hərəkatı başladılmış, həm də sərhədboyu ərazilərdə Azərbaycan torpaqlarını ələ keçirmək üçün təcavüzkar hərəkətlər törədilmişdi. 1990-cı ilin yanvar ayının ortalarından etibarən daha da şiddətlənən erməni təcavüzkarlığı nəticəsində Azərbaycanın Naxçıvan Muxtar Respublikasının kəndləri topa tutulmuş, yaxşı silahlandırılmış erməni quldur dəstələrinin hücumuna məruz qalan sərhəd kəndlərimizdə şəhidlər verilmişdi.**



Bütün bunlar SSRİ hökumətinin erməni separatizminə açıq-aşkar dəstəyi şəraitində həyata keçirilirdi. Bununla əlaqədar Azərbaycan xalqının böyük əksəriyyətində mərkəzi hökumətə və kommunist ideologiyasına qarşı tam inamsızlıq yaranmışdı. Yanvarın 19-da Ermənistan silahlı dəstələrinin Naxçıvan Muxtar Respublikasının Ermənistanla sərhədlərində təcavüzünün daha da şiddətlənməsi və bu təcavüz qarşısında əliyalın xalqın çarəsiz qalması ona gətirib çıxardı ki, həmin gün gecə yarısı təcili toplanan Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının (Naxçıvan MSSR) Ali Sovetinin deputatları fövqəladə sessiya keçirib "Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında" məsələ müzakirə etdilər. Sessiyada SSRİ hökuməti tərəfindən Azərbaycan torpaqlarına, o cümlədən Naxçıvan ərazilərinə ermənilər tərəfindən təcavüzün qarşısı alınmadığına, Muxtar Respublikanın ərazi bütövlüyünün pozulmasına göz yumulduğuna görə Naxçıvan MSSR-in SSRİ-nin tərkibindən çıxması və özünü müstəqil respublika elan etməsi haqqında qərar qəbul edildi. Bu qərarda vurğulanırdı ki, 1921-ci ilin oktyabrında imzalanmış Qars müqaviləsinin şərtləri kobud şəkildə pozulduğundan, Muxtar Respublika əhalisinin təhlükəsizliyi və torpaq bütünlüyü təmin olunmadığından bu addım atılır.(Naxçıvan Ensiklopediyası. 2 cilddə, 1-ci cild, Qars Müqaviləsi. Naxçıvan, 2005, s.321)

Bu qərar və bu addımla əlaqədar dünyanın böyük dövlətlərinə və xalqlarına Müraciət qəbul edildi və radiokanallar vasitəsilə müxtəlif dillərdə yayımlandı. Naxçıvanda yaranmış vəziyyətlə əlaqədar həmin ölkələrin rəhbərliyinə və oradakı diplomatik nümayəndəliklərə çatdırılması üçün Türkiyə Cümhuriyyətinə və İran İslam Respublikasının Təbriz şəhərinə gizli olaraq heyətlər göndərildi. Bir həftə bu şəkildə davam edən "müstəqillik" şəraitində nəşr edilən "Şərq qapısı" qəzetində mərkəzi hakimiyyəti, xüsusilə Mixail Qorbaçovu, Kremlin ermənipərəst siyasətini kəskin tənqid və ifşa edən məqalələr dərc olunurdu. Həmin vaxt məsul vəzifə tutan bu sətirlərin müəllifinin də dərc edilən "Səngərdən məktub" adlı məqaləsində Kommunist Partiyasının, Sovet dövlətinin bu mənfur siyasəti pislənmiş və vətəndaşlarımıza Kommunist Partiyası sıralarını tərk etmək çağırışı edilmişdi. (Bax: "Şərq qapısı" qəzeti, 23 yanvar 1990-cı il)

Azərbaycan SSR rəhbərliyi Naxçıvan MSSR Ali Sovetinin qərarını ləğv edərək və Naxçıvanın partiya sovet rəhbərliyinə təzyiq göstərərək onları Moskvaya tabe etdirməyə çalışırdı. Belə bir şəraitdə Naxçıvana Ermənistan tərəfindən həmlələr, basqınlar davam edir, insanların girov götürülməsi, mal-qaranın aparılması kimi hallar baş verirdi. Bəzi hallarda belə qanunsuz hərəkətlərin qarşısı alınsa da, vəziyyət acınacaqlı idi. Bakı-Naxçıvan qatarı ermənilər tərəfindən tez-tez dayandırılır, sərnişinlər girov vəziyyətinə düşürdü. Naxçıvan ərazisində də ermənilərin bu hərəkətlərinə adekvat cavablar veriləndə Mərkəzi hökumətin Naxçıvana təzyiqləri güclənirdi. Bir sözlə, ermənilər fürsət yaranan kimi Azərbaycanın həm Qarabağ vilayətini, həm də Naxçıvanı ələ keçirmək üçün hərtərəfli fəaliyyətə başlamışdılar.

Azərbaycanda, həmçinin onun əsas hissəsindən Ermənistan ərazisi ilə ayrı salınmış Naxçıvan bölgəsində yaranmış mürəkkəb siyasi-hərbi şəraitdə, 20 iyul 1990-cı il tarixində Ulu Öndər Heydər Əliyev Moskvanın təqiblərindən yaxa qurtararaq Bakıya, iki gün sonra isə Naxçıvana gəldi.(Azərbaycan Respublikasının tarixi.1-ci cild, Bakı, Azərbaycan Tarixçiləri İctimai Birliyi, 2016, s.21) Bu gəlişin əhalidə yaratdığı ümid işığını elə ilk gün on minlərlə adamın iştirak etdiyi izdihamlı görüşdə müşahidə etmək olardı. Xalq öz sevimli rəhbərinə, uzun illər Azərbaycana uğurla və şərəflə xidmət etmiş, SSRİ hökumətinin başında duranlardan biri olmuş Heydər Əliyevə haqlı olaraq bir xilaskar kimi baxırdı. Çünki Naxçıvan əhalisi cəsur və mübariz olmasına baxmayaraq həm təcavüzkar ermənilərin işğalçı siyasətlərinə qarşı, həm erməniləri dəstəkləyən Sovet hökumətinin təxribatçı qurumlarına qarşı təkbaşına mübarizə aparmalı olmuşdu. Azərbaycanın o zamankı Moskvapərəst rəhbərliyi Heydər Əliyevə Bakıda yaşamaq imkanı vermədiyi kimi, Naxçıvana mümkün olan yardımı da etmirdi. Digər tərəfdən də, iqtisadi blokada. Vaxtilə Sovet hökuməti tərəfindən Azərbaycan ərazisi olan Zəngəzur bölgəsinin Ermənistana verilməsi nəticəsində bütün kommunikasiyalar da bu ərazidən keçdiyindən yaranmış fürsətdən istifadə edən ermənilər Naxçıvana ötürülən elektrik, qaz, rabitə xətlərini kəsməklə bölgəni tamam əzmək istəyində idilər.

Belə bir şəraitdə Azərbaycan rəhbərliyinin və onun Naxçıvandakı funksionerlərinin təzyiqinə baxmayaraq Heydər Əliyevi Naxçıvan seçiciləri həm Azərbaycan Respublikası Ali Sovetinə, həm də Naxçıvan Muxtar SSR Ali Sovetinə deputat seçərək böyük xilaskarlıq missiyası üçün ona yol açdılar. Xalqda qəti inam yaranmışdı ki, yalnız Heydər Əliyev ölkəni bu çıxılmazlıqdan qurtara bilər. Akademik İsa Həbibbəyli yazır: "....Ümummilli Lider Heydər Əliyev böyük xilaskarlıq missiyasına Naxçıvan Muxtar Respublikasından başlamışdı. Bu dövrdə Naxçıvan Muxtar Respublikası ölkənin xilası laboratoriyası funksiyasını həyata keçirirdi. O zaman Naxçıvan Heydər Əliyevin xilaskarlıq məktəbinə çevrilmişdi" (İsa Həbibbəyli Heydər Əliyev dövlətçilik təlimi və müasir dövr. Naxçıvan, "Əcəmi", 2013, s. 156)

3 sentyabr 1991-ci il tarixində Naxçıvan Muxtar Respublikasının Ali Məclisi deputatlarının yekdilliklə səs verməsi və Muxtar Respublika əhalisinin dəfələrlə təkidli tələbi ilə Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinə sədr vəzifəsinə seçilməyə razılıq verdi. Ali Məclisin sədri kimi, Azərbaycanda müstəqil dövlət quruculuğunun ilk və əsas tədbirlərini həyata keçirən, Naxçıvanın erməni işğlından xilası, sosial-iqtisadi vəziyyətin düçar olduğu ağır böhran durumundan qurtarılması üçün fədakarlıqla səy göstərən, bütün çətinliklərə əzmlə dözüb vəziyyətdən çıxış yolları tapan Heydər Əliyev ilk növbədə Naxçıvanı blokadadan çıxarmaq üçün qardaş Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə əlaqələrin qurulmasına önəmli əhəmiyyət verirdi. Heydər Əliyevin Türkiyə Cümhuriyyətinə və İrana səfərləri, dövlət və hökumət başçıları ilə görüşləri və müzakirələri nəticəsində Azərbaycan hökuməti tərəfindən gözümçıxdıya salınan Naxçıvana yollar açmaq, əhalini aclıq və soyuqdan qismən qorumaq mümkün oldu. Uzun əsrlər ayrı salınmış xalqlarımızın vahid etnik köklərə, ortaq dil və mədəniyyətə dayanan münasibətləri təbii bir doğmalıq və yaxınlıq mühiti yaratmışdı. Azərbaycan Cümhuriyyətinin öz müstəqilliyini yenidən qazanması, təbii ki, Türkiyədə məmnunluqla qarşılanmışdı və Türkiyə Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlət olmuşdu. Sovet İttifaqının hələ mövcud olduğu bir vaxtda, 1991-ci il noyabrın 9-da Türkiyə Cümhuriyyəti hökuməti bu cəsarətli addımı atmışdı.( Musa Qasımlı. Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003), I hissə, Bakı, Mütərcim, 2015, s.427)

Məlum olduğu kimi, 1989-cu ilin 31 dekabr tarixində Azərbaycanın Naxçıvan Muxtar Respublikası ərazisində o zamankı SSRİ-nin İran və Türkiyə ilə dövlət sərhədinin istehkamları və tikanlı məftilləri Kremlin antiazərbaycan siyasətinə etiraz olaraq tamamilə dağıdılmışdı, Arazın hər iki tərəfindəki Azərbaycan türklərinin 70 illik qadağalardan sonra ilk dəfə bir-biri ilə qucaqlaşmaq imkanı yaranmış, az sonra isə İran və Türkiyə ilə razılaşdırılmış, sadələşdirilmiş gediş-gəliş bərqərar olmuşdu. Sovet dövlət orqanları geniş vüsət alan ümumxalq hərəkatı ilə hesablaşmağa məcbur olmuşdular.

Heydər Əliyevin məqsədyönlü Türkiyə siyasətinin nəticəsində 1991-ci il oktyabrın 29-da Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda Azərbaycanla Türkiyə arasında Araz çayı üzərindən salınmış müvəqqəti körpünün açılışı oldu. Beləliklə, Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında iqtisadi və mədəni əlaqələr yeni mərhələyə qədəm qoydu. Noyabrın 9-da həmin körpü vasitəsilə Muxtar Respublikaya Türkiyənin "Qızıl Ay" cəmiyyətinin xətti ilə 126 ton ərzaq gətirildi.( Şərq qapısı", 22 noyabr 1991-ci i)

Naxçıvanı türk-islam dünyasına bir qapı olaraq dəyərləndirən Heydər Əliyev Türkiyə Cümhuriyyətini Azərbaycanla birləşdirən bu yeganə ərazi bağlantısının qurulmasında, Araz çayı üzərində körpü salınıb gediş-gəlişin, iqtisadi-ticarət əlaqələrinin, mədəni-mənəvi münasibətlərin inkişaf etdirilib dərinləşdirilməsində tarixi rol oynadı. Heydər Əliyev ilk növbədə Naxçıvanı informasiya blokadasından çıxarmağa nail oldu. Onun şəxsi nüfuzu və blokada şəraitində olan Muxtar Respublkanı erməni təcavüzündən qorumaq sahəsində həyata keçirdiyi tədbirlər dünyanın bir sıra aparıcı kütləvi informasiya vasitələrinin müxbirlərinin Naxçıvana gəlməsinə , ilk mənbələrdən xəbərlər yayımlanmasına zəmin yaratdı. Məsələn,

Londondan, 21 may 1992-ci il tarixində müxbir Y. Sidorovun məlumatında bildirilirdi ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikasının rəhbəri Heydər Əliyev Londonun "Deyli tereqraf" qəzetinin orada olan müxbirinə demişdir: "Mən hərbi gərginliyin artırılmasının əleyhdarıyam, lakin Ermənistan yenə də bu cür hərəkət etsə, kömək üçün Türkiyəyə müraciət etməkdən başqa çarəm qalmayacaqdır". Heydər Əliyev xatırlatmışdır ki, 1921-ci ildə Qarsda imzalanmış müqaviləyə əsasən Türkiyə Naxçıvanın ərazi bütövlüyünün təminatçısıdır.

Qeyd etmək lazımdır ki, Heydər Əliyevin müraciəti əsasında Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəlin tapşırığı ilə mayın 21-də Türkiyə Respublikası Xarici İşlər Nazirliyinin nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına gəldi. Bununla əlaqədar Ali Məclisin iclasında Heydər Əliyev məlumat verdi ki, may ayının 18-də Türkiyənin Baş naziri Süleyman Dəmirəl, xarici işlər naziri Hikmət Çətin, Baş nazirin birinci müavini Ərdal İnönü Naxçıvana telefon etdilər, lazımi məlumatlar aldılar və o gündən indiyə qədər biz Türkiyənin rəhbərliyi ilə daim əlaqədəyik. Türkiyənin Nazirlər Kabineti may ayının 18-də gecə saat 12-nin yarısında toplaşaraq geniş bir bəyanat vermişdir. Bütün bunların nəticəsində biz dünya ictimaiyyətində düzgün, obyektiv təsəvvür yarada bildik və Ermənistanın təcavüzkar mövqeyini ifşa etdik. ("Şərq qapısı" qəzeti, 23 may 1992-ci il)

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı kimi həmin iclasda iştirak edən bu sətirlərin müəllifinin yaxşı yadındadır ki, Heydər Əliyev Türkiyə Cümhuriyyətinin qardaşlıq yardımını yüksək qiymətləndirirdi. O, vurğuladı ki, belə bir vaxtda bizi həm Naxçıvanın müdafiəsi, həm iqtisadiyyatın inkişafı, həm də əhalinin maddi vəziyyəti çox dərindən düşündürür. Lakin bildiyiniz kimi, daxili imkanlanmız çox məhduddur. Türkiyə bu günlər bizə yenə də hərtərəfli yardım göstərir. Bildiyiniz kimi, biz Sədərək vuruşmalarında yaralanmış 16 nəfəri müalicə olunmaq üçün Türkiyəyə göndərmişik. Əgər ehtiyac olsa, yenə də göndərə bilərik. Bundan əlavə, Türkiyədən həkimlər də gəlib və hazırda bizim xəstəxanalarda yaralıları müalicə edirlər. Dərman da göndərilib. Mən Baş nazir Süleyman Dəmirəllə telefonla danışarkən, o, bildirdi ki, "Qızıl Ay" Cəmiyyəti vasitəsilə Naxçıvana təcili yardım göndəriləcək.

Türkiyə Respublikası hökumətinin dəvəti ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev 1992-ci il martın 22-dən 25-nə qədər Türkiyədə səfərdə oldu. Ankarada Heydər Əliyevi Türkiyə Respublikasının Prezidenti Turqut Özal qəbul etdi.

23 mart 1992-ci il tarixində Heydər Əliyev Ankarada Baş Nazir Süleyman Dəmirəllə görüşmüşdür. S. Dəmirəl Heydər Əliyevi təqdim edərkən demişdir :Hörmətli Heydər Əliyev dünya siyasətində möhtərəm bir şəxsdir. Naxçıvan xalqı hörmətli Heydər Əliyevi baş tacı etmişdir. Şəxsən mən bunu təqdirəlayiq böyük bir iş kimi qiymətləndirirəm. Azərbaycanda da sabitlik axtarırıq və ümid edirik ki, bu yaxınlarda Azərbaycanda da siyasi sabitlik olacaq. Naxçıvanın isə bir sıra iqtisadi çətinlikləri var. Bu iqtisadi çətinlikləri aradan qaldırmaq üçün, ehtiyacları ödəmək üçün onlara kömək edəcəyik.

Heydər Əliyev çıxışında bildirmişdir ki, Naxçıvanın xüsusi bir statusunun olması, Türkiyənin Naxçıvan üçün zamin bir dövlət olması 70 il bundan əvvəl bağlanmış müqavilələrdə öz əksini tapıb. ... Mən heç də şübhə etmirəm ki, hörmətli Baş nazir, bütün türk millətini sevən insanların hamısı Azərbaycana yardım edəcəkdir. Azərbaycan türk diyarıdır, azərbaycanlılar türklərdir. İndi 100 ildən sonra türklərin qalxması üçün, türklərin bir-birinə yaxınlaşması üçün, türklərin birləşməsi üçün böyük bir fürsət yaranıb. Bu fürsətdən hər bir türk respublikası yaxşı istifadə etməlidir. (Şərq qapısı", 1 aprel 1992-ci i)

Səfərin sonunda 24 mart 1992-ci il tarixində Ankarada Azərbaycanla bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında Əməkdaşlıq PROTOKOLU imzalandı. Protokola görə Türkiyə Cümhuriyyəti hökuməti Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı, sənaye, qida və istehlak malları, nəqliyyat, telekommunikasiya, tikinti və turizm kimi sahələrdəki zəruri ehtiyaclarını təmin etmək üçün bütünlükdə 100 milyon dollarlıq bir kredit ayırdı. Razılaşdırıldı ki, Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasındakı enerji xətləri ən qısa vaxtda birləşdiriləcək, Naxçıvan Muxtar Respublikası Türkiyənin elektrik şəbəkəsindən öz tələbatını qismən ödəyə biləcəkdir. (Qayıdış. s.616-617)

Protokolda iqtisadi, sosial və mədəni əlaqələrlə yanaşı, daha bir maddə - hər il 100 nəfər naxçıvanlı gəncin Türkiyənin ali təhsil ocaqlarında təhsil alması maddəsi də yer almışdı. Heydər Əliyevin bu təşəbbüsü həmin dövrdə Naxçıvan əhalisinin ərzaq, enerji və sair həyati zəruri ehtiyacları qədər lazımlı idi, belə ki, cəmiyyətdə baş verən böhranlı proseslər təhsil sahəsinə də ağır zərbə vurmuşdu. Eyni zamanda, blokada şəraiti naxçıvanlı gənclərin Azərbaycan Respublikasının ali məktəblərində təhsilə müntəzəm davam etmələrinə də ciddi əngəllər yaratmışdı. Belə bir şəraitdə Türkiyə universitetlərinin qapısının açılması və azərbaycanlı tələbələrin təhsilinin və yaşamının həmin dövlət tərəfindən qarşılanması olduqca böyük imkan idi. Bu əsil qardaşlıq köməyi idi. Heydər Əliyev azərbaycanlı gənclərin Türkiyədə təhsil almaq imkanını çox yüksək dəyərləndirirdi. O, deyirdi ki, müqayisə edəndə görürsən ki, bir Naxçıvan üçün ildə 100 nəfərin, onun artıq 75 nəfəri yola düşür - Türkiyənin universitetlərində təhsil alması, mən sizi inandırıram ki, Türkiyənin bizə ayırdığı 100 milyon dollar kreditdən də, göstərdiyi cürbəcür yardımlardan da çox-çox qiymətlidir. Çünki bu işin qiymətini heç bir para ilə ölçmək olmaz. Bu, bizim xalqın gələcəyidir. ("Şərq qapısı" qəzeti, 7 oktyabr 1992-ci il)

Qeyd etmək lazımdır ki, Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikasını birləşdirən, çox qisa bir müddətdə tikintisi başa çatdırılan Araz çayı üzərində " Həsrət" körpüsü Vüsal körpüsünə döndü və 28 may 1992-ci ildə bu tarixi körpünün açılışı oldu. Açılışda iştirak edən Türkiyənin Baş naziri Süleyman Dəmirəl dedi: "Biz sizin çətinliklərinizi yaxşı bilirik, sizin xeyli itkilərinizdən xəbərdarıq. Lakin əmin olun: Azərbaycan özünün ədalətli mübarizəsində tək deyil. Biz dünyanın Azərbaycan haqqında həqiqəti bilməsi üçün özümüzdən asılı olan hər şeyi edirik və edəcəyik. Sizi əmin etmək isləyirəm ki, Türkiyə həmişə Azərbaycanla olmuşdur və olacaq. Biz kədəri və sevinci sizinlə birlikdə bölüşəcəyik".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev vurğuladı ki, bu gün bizim arzu və ümidlərimizin körpüsü açılır. 70 ildən artıq idi ki, biz bu günü gözləyirdik və arzularımız həyata keçdi. Bu gün biz Azərbaycan Demokratik Respublikasının banisi Məhəmməd Əmin Rəsulzadəni, onun silahdaşlarını xatırlayır və onlara əbədi minnətdarlığımızı bildiririk... Naxçıvan özünün faciəli günlərini yaşayır. Naxçıvanla Ermənistan sərhəddində müharibə gedir. Naxçıvanın qəhrəman oğulları çətinliklərə baxmayaraq öz doğma torpaqlannı müdafiə edirlər. (Qayıdış, 1996, s.638).

Həmin il iyunun 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev Türkiyənin Baş naziri Süleyman Dəmirəlin dəvəti ilə Türkiyədə səfərdə oldu. Heydər Əliyev İzmirdə keçirilmiş milli iqtisadi konqresdə iştirak etdi. Görüşlərdə vizasız gediş-gəliş barədə razılıq əldə edildi və Naxçıvanda Türkiyənin konsulluğunun açılması məsələsi də həll edildi. ("Şərq qapısı" qəzeti, 17 iyun 1992-ci il)

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev 1993-cü il aprel ayının 19-dan 25-dək Türkiyə Respublikasında yenidən səfərdə oldu. Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəylə birlikdə Türkiyə Respublikasının Prezidenti Turqut Özalın Ankarada və Istanbulda keçirilən matəm mərasimlərində iştirak etdi. Türkiyə Respublikasının Prezidenti Turqut Özalın dəfn mərasimi başa çatdıqdan sonra Heydər Əliyev İstanbuldan Ankaraya qayıtdı, aprelin 23-də və 24-də Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının inkişafı və blokada ucbatından burada yaranmış problemlərin həlli ilə əlaqədar Türkiyə hökuməti nazirləri ilə işgüzar görüşlər keçirdi. Heydər Əliyev aprelin 23-də Türkiyə Böyük Millət Məclisinin Türkiyə Respublikasının yaradılmasının 73-cü ildönümünə həsr olunmuş iclasında iştirak etdi, aprelin 24-də Türkiyə Respublikasının Baş naziri Süleyman Dəmirəl Heydər Əliyevi qəbul etdi.

Naxçıvan MR Ali Məclisinin sədri olaraq Muxtar Respublikaya rəhbərlik etdiyi dövrdə (3 sentyabr 1991-15 iyun 1993) beş dəfə qardaş Türkiyəyə səfər edən Heydər Əliyev Naxçıvan bölgəsində hərtərəfli xilaskarlıq missiyası həyata keçirirdi. Naxçıvan bölgəsinin etibarlı müdafiəsi və zəruri həyat tələbatlarının təmin edilməsi ilə yanaşı, onun Qardaş Türkiyə Cümhuriyyətinin siyasi rəhbərliyi ilə, Türkiyənin yaxın-uzaq vilayətlərinin başçıları və ictimaiyyəti ilə qurduğu əlaqələr və xoş münasibətlər Azərbaycan Respublikasına rəhbərlik etdiyi sonrakı illərdə "Bir millət, iki dövlət" formulunda uğurla davam etdi. Artıq uzun illərdir ki, dəfələrlə tarixin sınağından üzüağ və şərəflə çıxan Azərbaycan-Türkiyə Birliyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan qardaşlığında daha da möhkəmlənərək xalqlarımızın qarşısında yeni zəfərlərə yol açır. Bu daim uğura aparan Heydər Əliyev Yoludur!

**Eynulla MƏDƏTLİ**
**AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işlər üzrə direktor müavini,**
**tarix elmləri doktoru,**
**Fövqəladə və səlahiyyətli səfir**

# Üzeyir Hacıbəyli irsinə elmi baxış



**AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Şərqdə ilk operanın yaradıcısı, dahi bəstəkar Üzeyir Hacıbəyliyə həsr olunmuş elmi sessiya keçirilib.**

Əvvəlcə dahi bəstəkarın zəngin fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.

Tədbiri açan AMEA-nın prezidenti, Ədəbiyyat İnstitutunun direktoru akademik İsa Həbibbəyli Üzeyir Hacıbəylinin Azərbaycanın mədəniyyət və musiqi tarixində oynadığı roldan bəhs edib. Bildirib ki, Üzeyir Hacıbəyli yaradıcılığında Azərbaycan xalq musiqisinin, muğam və aşıq sənətinin incə xüsusiyyətlərini birləşdirərək özünün orijinal üslubunu yaradıb. Dahi bəstəkar publisist, felyetonçu və librettoçu-dramaturq, həm də Şərqdə ilk musiqili teatrın və ilk konservatoriyanın yaradıcısı kimi Azərbaycan tarixində və mədəniyyətində dərin iz qoyub. Üzeyir Hacıbəylinin, eyni zamanda, böyük ədəbiyyatşünas olduğunu söyləyən AMEA rəhbəri onun publisist yaradıcılığının "Molla Nəsrəddin" ədəbi məktəbinə və onun yaradıcılarına yaxın olduğunu bildirib. O, ədibin "Azərbaycan xalq musiqisinin əsasları" kitabının Azərbaycan musiqi sənətinin inkişafındakı rolunu qeyd edərək, əsərin digər Şərq xalqları üçün də mühüm mənbə olduğunu vurğulayıb.

AMEA rəhbəri qeyd edib ki, Üzeyir Hacıbəyli Azərbaycan Milli Elmlər Akademiyasının təsisçilərindən biri olub, Azərbaycan elminin inkişafında böyük xidmətlər göstərib. AMEA-nın indiki Memarlıq və İncəsənət İnstitutu bilavasitə onun təşəbbüsü ilə yaradılıb və instituta rəhbərlik böyük bəstəkarın özünə həvalə edilib.

Sonra institutun şöbə müdiri filologiya elmləri doktoru, professor Asif Rüstəmli "Üzeyir Hacıbəylinin Azərbaycan Xalq Cümhuriyyəti dövrü fəaliyyəti" adlı məruzəsini təqdim edib. Məruzəçi bildirib ki, Üzeyir Hacıbəyli 64 imza ilə 16-ya qədər mətbuat orqanında, o cümlədən "İrşad", "Həqiqət", "Tərəqqi", "Kaspi", "Yeni iqbal", "Molla Nəsrəddin", "Həyat", "Azərbaycan" kimi qəzet və jurnalların səhifələrində məqalə və felyetonlarla çıxış edib, xalqın maariflənməsi uğrunda var gücü ilə çalışıb. Təhsilin əhəmiyyəti, savadsızlığın aradan qaldırılması üçün ana dili dünyəvi məktəblər şəbəkəsinin yaradılması, onların pedaqoji və metodiki prinsiplərlə işləməsi, dərsliklərin məzmunu və yeni dərsliklərin tərtibi, mövcud mollaxana və mədrəsələrdəki qüsurlar, qızların təhsili, müəllim kadrları və tərbiyə məsələləri onun yazılarının ana xəttini təşkil edib.

"Arxiv materiallarını nəzərdən keçirdikdə Üzeyir Hacıbəyli haqqında ən az materialların məhz Cümhuriyyət dövrünə aid olduğunu görərik", - deyən professor Asif Rüstəmli dahi bəstəkarın ən intensiv yaradıcılıqla Cümhuriyyət dövründə məşğul olduğunu bildirib. Məruzəçi vurğulayıb ki, 1919-cu ilin mart ayında "Azərbaycan" qəzeti mart soyqırımının 1-ci ildönümü ilə bağlı silsilə məqalələr dərc edərək, erməni-daşnak silahlı dəstələrinin törətdikləri vəhşilikləri ifşa edib və həmin günü Ümummilli Matəm Günü kimi qeyd edib. Qəzetin həmin nömrəsində Üzeyir Hacıbəylinin də irihəcmli və kəskin ruhda yazdığı məqaləsi dərc olunub. Bəyanat xarakterli, məntiqi dəlillərlə əsaslandırılmış məqalə istər həmin dövr üçün, istərsə də müasir zaman üçün olduqca dəyərli mənbədir.

Filologiya elmləri doktoru, dosent Abid Tahirli "Qardaşların sarsılmayan əqidə və əməl birliyi (Üzeyir və Ceyhun Hacıbəylilərin yazışmaları əsasında)" məruzəsində qeyd edib ki, Hacıbəyli qardaşlarının fəaliyyəti, yaradıcılığı daim erməni millətçilərinin məkrli müqaviməti ilə üzləşib. Ceyhun Hacıbəyli hələ XX əsrin onuncu illərində "Kaspi" qəzetindəki yazıları ilə erməni qəzetlərinin və ermənipərəst rus mətbuatının azərbaycanlılara qarşı qərəzli, düşmən münasibətini ifşa edir, onları çirkin və yalan məlumatlardan əl çəkməyə çağırırdı. Bu mənada publisistin "Sərhəddə" adlı məqaləsi çox ibrətamizdir. C.Hacıbəyli tutarlı faktlara istinad edərək opponentlərinin yalanını, fitnəkarlığını, mənfur niyyətlərini ifşa edir.

Tədbirdə filologiya elmləri doktoru, dosent Şahbaz Musayev "Üzeyir Hacıbəylinin publisistikası"adlı məruzə ilə çıxış edib. Digər alimlər də onun yaradıcılığı haqqında dünya ədəbiyyatşünaslığında dəyərli əsərlərin olduğunu diqqətə çatdırıblar.

# Girne Amerikan Universitetinin rektoru ilə görüş

**AMEA-nın prezidenti akademik İsa Həbibbəyli Şimali Kipr Türk Cümhuriyyətində fəaliyyət göstərən Girne Amerikan Universitetinin rektoru prof. Dr. Serdar Yurtseverin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Görüşdə çıxış edən akademik İsa Həbibbəyli son illərdə Azərbaycan ilə Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatı çərçivəsində sıx əməkdaşlıq etdiklərini bildirib. Qeyd edib ki, bu münasibət elmi-mədəni müstəvidə də əməkdaşlığımız üçün geniş meydan açır və ötən müddət ərzində Akademiyada keçirilən bir sıra tədbirlərdə Şimali Kipr Türk Cümhuriyyətinin Azərbaycandakı nümayəndəsi də yaxından iştirak edib.

AMEA-nın tarixi və fəaliyyət istiqamətləri barədə məlumat verən akademik İsa Həbibbəyli ötən il Akademiyanın 80 illik yubileyinin Türk dünyasının alimlərinin də iştirakı ilə yüksək səviyyədə qeyd olunduğunu, bu gün AMEA-da humanitar və ictimai elmlərin aktual problemləri, eləcə də süni intellektlə bağlı mühüm tədqiqatların aparıldığını söyləyib.



Akademik İsa Həbibbəyli Milli Elmlər Akademiyasının qeyd olunan istiqamətlərdə Girne Amerikan Universiteti ilə əməkdaşlıq etməyə, birgə konfransların təşkilinə hazır olduğunu vurğulayıb.

Sonra çıxış edən Girne Amerikan Universitetinin rektoru prof. Dr. Serdar Yurtsever qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Bir sıra ali təhsil müəssisələrinin təşkilatçılığı ilə keçirilən "Türk dünyasında transformasiya və inteqrasiya: iqtisadiyyat, siyasət və texnologiya" mövzusunda beynəlxalq konfrans çərçivəsində ölkəmizdə səfərdə olduqlarını deyən Serdar Yurtsever Azərbaycan Milli Elmlər Akademiyası ilə də sıx əməkdaşlıq qurmaq niyyətlərini diqqətə çatdırıb.

Görüş zamanı AMEA ilə Girne Amerikan Universiteti arasında əməkdaşlıq müqaviləsinin imzalanmasına dair razılıq əldə olunub.

Çıxışlardan sonra qarşılıqlı hədiyyələr təqdim olunub, qonaqlar AMEA-nın Rəyasət Heyətinin binası ilə tanış olublar.

Qeyd edək ki, görüşdə Girne Amerikan Universitetinin baş katibi Aylin Ayhan, rektorun müşaviri Dr. Celal Sakka, Biznesin təşkili və idarə edilməsi fakültəsinin əməkdaşı Dr. Almula Umay Karamanlıoğlu, həmçinin AMEA-nın Rəyasət Heyəti aparatının Xarici əlaqələr və beynəlxalq təşkilatlarla iş şöbəsinin müdiri dosent Esmira Əlirzayeva və İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri dosent Ağahüseyn Şükürov da iştirak ediblər.

# Ərəb əlyazmaları və Əbul Qasım əz-Zəhravi irsi - *elmi sessiya*

**AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda "Əbul Qasım əz-Zəhravi: Ərəb müəlliflərinin əlyazmalarının tədqiqi və tərcümə problemləri" mövzusunda elmi sessiya keçirilib. Tədbir Əlyazmalar İnstitutunun və Səudiyyə Ərəbistanı Krallığı Kral Əbdüləziz Fondunun birgə təşkilatçılığı ilə baş tutub.**



Əvvəlcə iştirakçılar institutun ekspozisiya zalında ərəbdilli əlyazmaların sərgisi ilə tanış olublar. Elmi sessiya Azərbaycan Respublikasının Dövlət Himni və Səudiyyə Ərəbistanı Krallığının Himninin səsləndirilməsi ilə başlanıb.

Tədbiri açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli qeyd edib ki, AMEA-nın bir sıra institutlarında ərəb dili və ədəbiyyatı üzrə ayrıca tədqiqat qrupları və şöbələr fəaliyyət göstərir. Azərbaycan təkcə keçmiş sovet məkanında deyil, dünya miqyasında da əsas şərqşünaslıq və ərəbşünaslıq mərkəzlərindən biri kimi tanınır.

Vurğulanıb ki, AMEA-nın Səudiyyə Ərəbistanının ən böyük elmi-mədəni mərkəzlərindən biri olan Kral Əbdüləziz Fondu ilə rəsmi əməkdaşlığa başlaması böyük əhəmiyyət kəsb edir. Bu əməkdaşlıq xüsusilə Əlyazmalar İnstitutunda ərəb dili və ədəbiyyatı istiqamətində aparılan tədqiqatların daha sistemli və dərin şəkildə həyata keçirilməsinə yeni imkanlar yaradacaq.

Akademik İsa Həbibbəyli qeyd edib ki, görkəmli alim Əbul Qasım əz-Zəhravinin tibb elminə dair 30 cilddən ibarət fundamental əsəri üzrə Əlyazmalar İnstitutunun alimlərinin apardıqları tədqiqatların nəticəsi olaraq müstəqil nəşrin təqdim olunması nəzərdə tutulur. Bu əsər təkcə İslam dünyasında deyil, ümumilikdə dünya elmi tarixində cərrahiyyəyə həsr olunmuş ən qədim və zəngin mənbələrdən biridir. Əsərdə 240-dan artıq cərrahiyyə aləti təsvir olunub, konkret əməliyyatlar zamanı onların tətbiq üsulları elmi əsaslarla izah edilib və bu, müsəlman Şərqində cərrahiyyə elminin inkişafına mühüm təsir göstərib.

Sonra Araşdırma və Arxiv Mərkəzinin (Darah) icraçı direktoru Turki bin Məhəmməd əş-Şuveyr Kral Əbdüləziz çıxış edərək keçirilən elmi sessiyanın iki qurum arasında formalaşmış münasibətlərin möhkəmlənməsinə və elmi əməkdaşlığın genişlənməsinə mühüm töhfə verəcəyini bildirib. O, tədbirin əlyazmaların elmi irs baxımından daşıdığı əhəmiyyəti bir daha nümayiş etdirdiyini diqqətə çatdırıb.

Azərbaycan arxivlərində qorunub saxlanılan ərəb əlyazmalarından bəhs edən Turki bin Məhəmməd əş-Şuveyr Kral Əbdüləziz X-XI əsrlərdə İspaniyada, Kordovada yaşamış görkəmli ərəb alimi Əbül-Qasim əz-Zəhraviyə aid əlyazmanın xüsusi elmi əhəmiyyət daşıdığını vurğulayıb. O, Əbül-Qasim əz-Zəhravinin elmi irsinin dünya tibb elminin inkişafına mühüm töhfələr verdiyini söyləyib.

Səudiyyə Ərəbistanı Krallığının Azərbaycandakı səfiri İssam bin Saleh əl-Cuteyli isə çıxışında iki ölkə arasında müxtəlif sahələr üzrə mövcud əlaqələrin davamlı şəkildə genişləndiyini qeyd edib. Vurğulayıb ki, hər iki ölkənin dövlət başçılarının bu münasibətlərin inkişafına göstərdiyi xüsusi diqqət əməkdaşlığın strateji xarakter daşımasının bariz nümunəsidir. Səfir bildirib ki, bugünkü elmi sessiya məhz bu əlaqələrin ardıcıl və məqsədyönlü şəkildə davam etdirilməsinin göstəricisidir.

Daha sonra Əlyazmalar İnstitutunun direktoru akademik Teymur Kərimli çıxış edərək müasir dövrdə informasiya texnologiyalarının sürətli inkişafı fonunda bu kimi görüşlərin xüsusi elmi və strateji əhəmiyyət daşıdığını vurğulayıb. Bildirib ki, son illərdə rəqəmsallaşma proseslərinin intensivləşməsi, süni intellektlə bağlı şöbələrin yaradılması və bu sahə üzrə məsul şəxslərin müəyyənləşdirilməsi beynəlxalq elmi əməkdaşlığın daha da gücləndirilməsi üçün geniş imkanlar açır. O, fondun nəzdində saxlanılan 4 milyondan artıq əlyazma və eksponatın əhəmiyyətli hissəsinin rəqəmsallaşdırıldığını söyləyib, gələcəkdə iki qurum arasında elektron əlyazmaların mübadiləsinin yüksək səviyyədə həyata keçiriləcəyinə əminliyini ifadə edib.

Tədbirdə Əlyazmalar İnstitutunun Ərəbdilli əlyazmaların tədqiqi şöbəsinin müdiri Kamandar Şərifov, İmam Məhəmməd bin Səud İslam Universitetinin Sosial elmlər fakültəsinin Tarix və mədəniyyət kafedrasının professoru Gəda bint Abdullah əl-Qablan, Əlyazmalar İnstitutunun baş elmi işçisi Zəkiyyə Əbilova, Səudiyyə Ərəbistanının müsəlman xalqlarının tarixi və sivilizasiyası üzrə tədqiqatlar professoru İbrahim bin Məhəmməd bin Həməd əl-Muzeqni və digərləri çıxış edərək aparılan müzakirələrin gələcək birgə fəaliyyət üçün yeni imkanlar açdığını bildiriblər.

# Ədəbiyyat İnstitutu VI Türk Dünyası Ədəbiyyat və Kitab Festivalına hazırlaşır




**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi şurasının növbəti iclası keçirilib. AMEA-nın prezidenti institutun direktoru akademik İsa Həbibbəylinin sədrliyi ilə baş tutan tədbirdə şura üzvləri, şöbə müdirləri və aidiyyəti şəxslər iştirak ediblər.**

İclası açan akademik İsa Həbibbəyli filologiya üzrə fəlsəfə doktorları, dosentlər Rauf Sadıxovu 85, Rəşid Kərimovu isə 60 illik yubileyləri münasibətilə təbrik edərək onlara institutun fəxri fərmanlarını təqdim edib.

Daha sonra o, Prezident İlham Əliyevin "Böyük Azərbaycan şairi Xaqani Şirvaninin 900 illik yubileyinin qeyd edilməsi haqqında" 28 yanvar 2026-cı il tarixli Sərəncamından irəli gələn vəzifələr barədə danışıb. O, şairin irsinin tədqiqi istiqamətində institutda görülən işlər və hazırlanan nəşrlər barədə ətraflı məlumat verib. Qeyd olunub ki, yubiley çərçivəsində Bakıda və şairin doğma yurdu Şamaxıda elmi konfransların keçirilməsi planlaşdırılır.

İclasda çıxış edən direktor müavini filologiya elmləri doktoru Mehman Həsənli VI Türk Dünyası Ədəbiyyat və Kitab Festivalına hazırlıq işləri barədə məlumat verib. Bildirilib ki, mayın 22-də start götürəcək festivalın açılış mərasimində akademik İsa Həbibbəylinin giriş nitqi ilə çıxışı və institutun genişmiqyaslı təmsilçiliyi nəzərdə tutulur.

Sonda elmi katib filologiya üzrə fəlsəfə doktoru Aygün Bağırlı çap və müsabiqə məsələləri ilə bağlı gündəlikdəki mövzuları təqdim edib. Müzakirələrdən sonra müvafiq qərarlar qəbul olunub.

# Anadilli şeirimizin zirvəsi

**Mayın 4-də AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda "Anadilli şeirimizin zirvəsi - Səməd Vurğun" mövzusunda elmi sessiya keçirilib.**

Elmi sessiyanı açan AMEA-nın vitse-prezidenti, Şərqşünaslıq İnstitutunun direktoru akademik Gövhər Baxşəliyeva Prezident İlham Əliyevin 2026-cı il 23 fevral tarixli Sərəncamı ilə bu il XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi Səməd Vurğunun 120 illiyinin qeyd edildiyini deyib. O, bununla əlaqədar Şərqşünaslıq İnstitutunda da elmi sessiya təşkil olduğunu bildirib. Səməd Vurğunun Azərbaycan ədəbiyyatında xidmətlərindən söz açan akademik şairin milli şüurun formalaşmasında, Ana dilinin inkişaf etdirilməsində rolundan danışaraq, onun əsərlərinin əsasında azərbaycançılıq amalının dayandığını qeyd edib. G.Baxşəliyeva Səməd Vurğunun bədii tərcümələrindən də söz açaraq, dünya ədəbiyyatının klassik nümunələrini Azərbaycan dilinə çevirən şairin bu sahədə də töhfələrinin yüksək sənətkarlıq nümunəsi olduğunu, bu tərcümələrdə orijinal əsərlərin ruhunun qorunaraq, onların milli ədəbi mühitə uğurla uyğunlaşdırıldığını vurğulayıb.

Elmi sessiyada institutun əməkdaşı Faidə Omarova "Səməd Vurğun və Türk dünyası" mövzusunda məruzə ilə çıxış edib. Bütün türk xalqlarının Səməd Vurğuna dərin sevgi və ehtiram hissi ilə yanaşdığını, onun şeirlərinə xüsusi maraq göstərdiklərini deyən məruzəçi, eyni zamanda, bu böyük sənətkara ithaf olunan çoxsaylı dəyərli şeirlər yazıldığını, onun yaradıcılığı haqqında həm elmi, həm də publisistik əsərlər qələmə alındığını bildirib.

F.Omarova S.Vurğunun Türk dünyasının ədəbi nümayəndələri ilə qarşılıqlı münasibətlərindən danışaraq, türkmən



şairi Berdi Kerbabayev, Başqırdıstanın Xalq şairi Mustay Kərim, Kabarda-Balkar Muxtar Respublikasının Xalq şairi Qaysın Quliyev, Özbəkistanın Xalq şairi Qafur Qulam kimi ədiblərin şair haqqında fikir və düşüncələrindən bəhs edib.

"Səməd Vurğunun elmi və ictimai fəaliyyəti" mövzusunda məruzə edən institutun elmi işçisi Aygül Mirzəyeva bildirib ki, elmi fəaliyyətinə 1931-ci ildə başlayan Səməd Vurğun daha sonra bədii yaradıcılığa üstünlük versə də, bu sahədən də tam uzaqlaşmayıb. 1945-ci ildən etibarən isə Azərbaycan Elmlər Akademiyasının yaradıcılarından biri olaraq uzun illər elm yolunda xidmət göstərib, Azərbaycan SSR Elmlər Akademiyasının akademiki, vitse-prezidenti olub.

Məruzəçi qeyd edib ki, Azərbaycan ədəbiyyatı və ictimai fikir tarixində mühüm yer tutan şəxsiyyətlərdən biri olan Səməd Vurğunun elmi fəaliyyəti əsasən ədəbiyyatşünaslığın inkişafına, ictimai fəaliyyəti isə cəmiyyətin mədəni və mənəvi tərəqqisinə xidmət edib. Onun çoxşaxəli irsi bu gün də öz aktuallığını qoruyub saxlayır.

# "Startup School 4" proqramı çərçivəsində təlim və infosessiya



**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasında (MEK) AMEA Rəyasət Heyəti aparatının Elm və Təhsil şöbəsinin və Gənclər Akademiyasının birgə təşkilatçılığı ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) "Enterprise Azerbaijan" portalının həyata keçirdiyi "Startup School 4: Five Continents - 500 Startups" proqramı çərçivəsində təlim və infosessiya görüşü keçirilib.**

Görüşdə AMEA-nın müxtəlif institutlarının əməkdaşları və tədqiqatçıları, xüsusilə innovasiya və sahibkarlıq fəaliyyətinə maraq göstərən gənc tədqiqatçılar iştirak ediblər.

Tədbiri giriş sözü ilə AMEA Gənclər Akademiyasının sədri dosent Elmir Babayev açaraq proqramın strateji əhəmiyyətinə toxunub. O, bu təşəbbüsün təkcə yeni texnologiyaların və rəqəmsal mühitin formalaşdırılmasına deyil, həm də dayanıqlı inkişafın təmin edilməsinə xidmət etdiyini qeyd etmişdir. Elmir Babayev proqramın innovasiya və rəqəmsal transformasiya sahələrində yeni imkanlar yaratdığını bildirərək, AMEA-nın mövcud elmi potensialının bu sahədə fəal iştiraka imkan verdiyini və Akademiyanın bu prosesdə yaxından fikir oynamağa hazır olduğunu diqqətə çatdırmışdır.

"Enterprise Azerbaijan" portalının rəhbəri dos. İsa Qasımov iştirakçılar ilə "Elmin kommersiyalaşdırılması: startapların formalaşdırılması və inkişafı" mövzusunda bilik və təcrübələrini bölüşüb. İnfosessiya çərçivəsində iştirakçılara "Startup School 4" qlobal innovasiya proqramının məqsədləri, iştirak imkanları və startapların beynəlxalq ekosistemə inteqrasiya perspektivləri barədə ətraflı məlumat verilib. Eyni zamanda, elmi tədqiqat nəticələrinin kommersiyalaşdırılması, ideyaların startaplara çevrilməsi və innovasiya yönümlü layihələrin inkişaf etdirilməsi mövzuları ətrafında fikir mübadiləsi aparılıb. Diqqətə çatdırılıb ki, elmi biliklərin real iqtisadi dəyərə çevrilməsi və tədqiqatçıların startap ekosisteminə inteqrasiyası müasir innovasiya siyasətinin əsas istiqamətlərindən biridir. Bu baxımdan "Startup School 4" proqramı tədqiqatçıların ideyalarının qlobal miqyasda inkişafına dəstək verən mühüm platforma kimi çıxış edir. Qeyd edək ki, "Startup School 4: Five Continents - 500 Startups" proqramı innovativ ideyaların dəstəklənməsi, startap ekosisteminin gücləndirilməsi və beynəlxalq əməkdaşlıq imkanlarının genişləndirilməsini hədəfləyir.

# Azərbaycanlı alim Honkonq Kore Akademiyasının üzvü seçilib

**AMEA-nın akademik-katibi akademik Arif Həşimov Çin Xalq Respublikasının Honkonq Kore Akademiyasının üzvü seçilib. Bununla bağlı Honkonq Kore Akademiyasının Baş katibliyinin icraçı müavini professor Raymond J. Vu akademik Arif Həşimova məktub göndərib.**



Azərbaycanlı alimə üzvlük sertifikatının elektron nüsxəsi və Akademiya hesabı ilə bağlı məlumatlar göndərilib.

"Gələcəkdə sizi ofislərimizə və mərkəzlərimizə səmimiyyətlə dəvət edirik. Burada sizin təqdimat mərasiminizi, Akademiyanın tərəfdaşları və üzvləri ilə görüşünüzü təşkil etməkdən, beynəlxalq əməkdaşlıq və akademik mübadilə imkanlarını müzakirə etməkdən məmnun olarıq", - deyə məktubda qeyd olunub.

Honkonq Kore Akademiyası üzvlərini bu elmi qurumun həyatında fəal iştirak etməyə təşviq edir. Bu sıraya alimin Akademiya icması üçün maraqlı ola biləcək və ya daha geniş yayılmağa layiq olan son işləri, nailiyyətləri, yazıları, ideyaları və digər akademik və ya ictimaiyyətə yönəlmiş töhfələrlə bağlı xəbərləri paylaşmaq, yeni üzvlərin seçilməsi üçün namizədliklərin verilməsi və dəyərləndirmə prosesində iştirak etmək, Akademiyanın müvafiq fəaliyyətlərinə və layihələrinə qoşulmaq və lazım olduqda yeni təşəbbüslər təklif etmək məsələləri daxildir.

# AMEA nəzdində RSXM-nin əməkdaşları Özbəkistanda səfərdə olublar

**Beynəlxalq Elm və Texnologiya Mərkəzinin təşkilatçılığı ilə 30 aprel-3 may 2026-cı il tarixlərində Özbəkistanın paytaxtı Daşkənd şəhərində SNECCA layihəsi çərçivəsində iclas keçirilib.**



İclasda Azərbaycanı AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru, AMEA-nın müxbir üzvü, professor Qurban Yetirmişli və mərkəzin əməkdaşı Nail Qazıyev təmsil ediblər. İclasda seysmologiya sahəsində beynəlxalq əməkdaşlığın inkişafı, müasir tədqiqat metodlarının tətbiqi, eləcə də regional seysmik təhlükənin qiymətləndirilməsi istiqamətində məruzələr təqdim edilib və müzakirələr aparılıb.

Səfər çərçivəsində RSXM nümayəndələri həmçinin Özbəkistan Respublikasının Fövqəladə Hallar Nazirliyinin dəvəti ilə 29-30 aprel tarixində Daşkənd şəhərində təşkil edilən Zəlzələ Qurbanlarının Beynəlxalq Anım Günü çərçivəsində keçirilən tədbirlərdə də iştirak ediblər. Keçirilən görüşlərdə Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının seysmoloji mərkəzləri arasında əməkdaşlığın daha da genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb.

AMEA nəzdində RSXM-nin baş direktoru, AMEA-nın müxbir üzvü, professor Qurban Yetirmişli keçirilən tədbirlər çərçivəsində bir sıra ölkələrin seysmoloji təşkilatlarının nümayəndələri ilə, eləcə də ABŞ-nın Livermor Milli Laboratoriyasının nümayəndəsi Andrea Chiong, Kanadanın Viktoriya Universitetinin professoru Tuna Onur və digər tədbir iştirakçıları ilə ikitərəfli görüşlər keçirib.

Sonda tədbir iştirakçıları Özbəkistan Elmlər Akademiyasının rəhbərliyinin dəvəti ilə Daşkənddə yerləşən İslam Sivilizasiya Mərkəzini də ziyarət ediblər.

# Xarkovlu naşir Azərbaycan haqqında kitab hazırlayır

**Ukraynalı naşir və yazıçı Aleksandr Krasovetski AMEA Nəsimi adına Dilçilik İnstitutunda olub. Qonaq institutun direktoru professor Nadir Məmmədli ilə görüşərək gələcək layihələri barədə məlumat verib.**



Ukraynanın Xarkov şəhərində "Folio" nəşriyyatının direktoru, yazıçı A.Krasovetski bildirib ki, səfərinin əsas məqsədi Azərbaycan haqqında yeni kitab hazırlamaqdır. O qeyd edib ki, əvvəllər Gürcüstanın tanınmış siyasətçi və hərbçiləri ilə müsahibələrdən ibarət toplu nəşr etdirib. İndi isə Azərbaycanın ərazi bütövlüyünü necə bərpa etdiyini, iqtisadi inkişaf yolunu, tarixini və mədəniyyətini geniş auditoriyaya çatdırmaq niyyətindədir. Bu məqsədlə ölkəmizin tanınmış simalarından müsahibələr alacağını deyən yazıçı Azərbaycan dilinin türk dilləri ailəsindəki yeri və milli kimlik məsələləri ilə də yaxından maraqlandığını bildirib.

Görüşdə professor Nadir Məmmədli institutun elmi fəaliyyəti, kadr hazırlığı və yeni nəşrlər barədə ətraflı məlumat verib. O, ana dilinin dövlətçiliyin, milli kimliyin və tarixi yaddaşın əsas dayağı olduğunu vurğulayıb: "Azərbaycan dövləti dili cəmiyyətin bütövlüyünü təmin edən, həm mədəni, həm də siyasi inteqrasiyanı reallaşdıran fundamental faktor kimi uca tutur".

Sonda professor dilçilik sahəsindəki yeni elmi nailiyyətlərin beynəlxalq səviyyədə tanıdılmasının vacibliyini qeyd edib və qonağa institutun yeni nəşrlərini təqdim edib.

# Azərbaycanşünaslığın inkişafı və azərbaycançılıq konsepsiyası

*(əvvəli qəzetin 17 aprel 2026-cı il tarixli sayında)*

## Platonun "fəlsəfi bilməcəsi"

Ümumiyyətlə, "Azərbaycançılıq məsələsi"ni o dərəcədə çoxboyutlu və geniş anlamlı fenomen hesab edirik ki, onun konkret elmi istiqamətlər üzrə adekvat anlamına varmağı Azərbaycan humanitar, fəlsəfi, filoloji, siyasi, kulturoloji, tarixi, sosioloji və digər elmi mahiyyətli təfəkkürünün "strateji nüvəsi" adlandıra bilərik. Məsələ Azərbaycanın cəmiyyət və müstəqil dövlət kimi mövcudluğunun ən dərin məna və məqsəd qatları ilə bağlıdır. Buna görə də o, faktiki olaraq, hər bir fərdin və bütövlükdə kollektiv mövcudatın əsas varolma şərtləri ilə burbaşa bağlıdır.

Bizcə, məhz bu kontekstdə bədii təfəkkürün dövrləşdirilməsi konsepsiyasına bütövlükdə Azərbaycan tarixi, fəlsəfi, sosioloji, folklor, kulturoloji, incəsənət, musiqi və digər təfəkkür çalarlarının vəhdəti fonunda nəzər salmaq zəruridir. Bədii təfəkkürə azərbaycançılıq ideyası, prinsipi və məfkurəsi prizmasında baxıb ümumi qənaətlər əldə etsək, yekunda bütövlükdə Azərbaycan təfəkkürünün dinamikasına tam (holistik) və kəsilməz dinamikaya malik proses (fenomen) keyfiyyətində nəzəri-konseptual (təhlili, tənqidi və proqonstik mahiyyətli) yanaşmaya vara bilərik.

Bu yanaşmanın üstün cəhətlərindən biri də zaman-məkan vəhdətini daha geniş coğrafi, siyasi, mədəni, mənəvi-əxlaqi və bütövlükdə fəlsəfi-elmi miqyasa transformasiya etmək imkanını yaratması ilə bağlıdır. Burada söhbət təfəkkürün dövrləşdirilməsinin bütövlükdə Türk dünyası miqyasına konseptual, metodoloji və praktiki-tətbiqi proyeksiya edilə bilməsi imkanından gedir.

Vurğuladığımız bağlantılar və transformasiyalar aspektində Platonun bir "fəlsəfi bilməcəsi"ni xatırlatmaq istərdik. Platon yazırdı ki, "həmişə mövcud olub, heç zaman təşəkkül etməyənlə, həmişə təşəkküldə olub, lakin heç zaman mövcud olmayanı fərqləndirmək lazımdır". Qərb fəlsəfi fikrinin tarixi boyu bu tezis açıq və ya gizli olaraq fərqli yanaşmaların təməlində yer almışdır. Ancaq onun ən parlaq ziddiyyətli təzahürü XX əsrdə M.Fuko, J.Delyoz və F.Qvattarinin fəlsəfi yanaşmasında konseptuallaşmışdır.

Bu bilməcəni azərbaycanşünaslığa zaman-məkan kontinuumunda tətbiq etsək, alınır ki, azərbaycançılıq daim təşəkküldə olub, lakin konkret mövcudluq kimi var olmursa, azərbaycanşünaslığa faydası yoxdur. Eyni zamanda, azərbaycançılıq mövcud olur, lakin zaman-məkanda təşəkkül etmək keyfiyyətinə malik olmursa, yenə də azərbaycanşünaslıq üçün yararlı olmur.

Müstəqil dövlət quruculuğu kontekstində bu bilməcənin konseptual əhəmiyyəti vardır. Çünki azərbaycançılıq vurğuladığımız hər iki varinatda nəticəverici təfəkkür və praktiki-tətbiqi keyfiyyət ala bilməz - o, daim sözdə gözəl ifadə forması alacaq, lakin konseptuallıqdan praktiki tətbiqiyə keçidi zamanı avtomatik olaraq idraki spekulyasilyalar ucbatından səmərəsiz olacaqdır. Bu məqamda azərbaycanlı təfəkkürünün kollektiv miqyasda ciddi fəlsəfi-elmi əsaslı tədqiqi bütün boyutları ilə aktual məsələ olaraq qarşımıza çıxmaqdadır.

İddia edirik ki, son illərə qədər məhz bu aldadıcı və faktiki olaraq antiazərbaycançı idraki strategiyadan istifadə etmişlər. Yalnız fədakar və sədaqətli Azərbaycan bədii təfəkkür sahiblərinin çalışması ilə məsələ bütövlükdə müstəqil dövlətçilik üfüqündən çəkilməmişdir. Bədii təfəkkürün dövrləşdirilməsi çalışmalarına, cəhdlərinə və həyata keçirilən nümunələrinə bir də bu mövqedən baxmağımız lazımdır. Burada bir xüsusiyyəti vurğulamadan olmaz.

## Fəlsəfi-tarixi üfüq məhdudiyyəti

Azərbaycanda bədii təfəkkürün ənənəvi olaraq milli mədəniyyət sistemində xüsusi yerə malik olması fakt kimi qəbul edilir. Onun hər bir səbəbi haqqında ayrıca danışmaq olar. Ancaq son bir neçə əsrdə Azərbaycanın coğrafi-siyasi və mədəni mövcudluğunda aparıcı olan siyasi və geosiyasi faktorların işığında bədii təfəkkürün (filologiya, ədəbiyyat, bədii dil, folklorşünaslıq, incəsənət) xüsusiyyətlərinə baxdıqda, onun, məsələn, fəlsəfi və tarixi təfəkkürlə müqayisədə daha çox sərbəstlik imkanlarına malik olduğunu görərik.

Belə ki, yad dövlətin hökmranlığı altında olan Azərbaycan ciddi fəlsəfi, siyasi, ideoloji və mədəni-mənəvi nəzarət altında qalmışdır. Onun əsas əlamətlərindən biri başlıca ideyanın Azərbaycanda deyil, kənarda hazırlanıb cəmiyyətimizə qəbul etdirilməsindən ibarət olmuşdur. Fəlsəfədə bu, konkret yaradıcı, müəyyənedici ideyanın Azərbaycan fəlsəfi təfəkkürünə yeridilməsində əksini tapmışdır.

Azərbaycanlı filosof özünün müstəqil fəlsəfi sistemini qurmaq imkanlarından demək olar ki, məhrum idi. Buna görə də ayrı-ayrı fərdlər öz fəlsəfəsini yaradıb, sona qədər inkişaf etdirə bilmirdi.

Xüsusilə XX əsrdə bunun kifayət qədər nümunələri vardır. Tarixi təfəkkür də eyni məhdudiyyətlər daxilində mövcud olmuşdur. Nəticədə fəlsəfə və tarix kimi mühüm sosiohumanitar təfəkkür sahəsi qövmün, cəmiyyətin və ölkənin daxili sifarişi ilə inkişaf etmək imkanından xeyli məhrum olmuşdu.

Bu şərtlər daxilində Azərbaycan bədii təfəkkürünün aparıcı rol oynaması həm ənənəyə uyğun idi, həm də real şərtlər daxilində düzgün səmərəli seçim idi. Buradan 2 qənaət əldə etmək olar.

Birincisi, Azərbaycanda bədii təfəkkürün dövrləşdirilməsi özəlliyini fəlsəfi-elmi təfəkkürün sferalarına yaradıcı (kreativ, yəni konseptual+sosiuma tətbiq baxımından innovativ) proyeksiya etmək tarixi zərurət kimi qəbul edilməlidir. Ədəbiyyat təcrübəsi təfəkkürün digər istiqamətləri ilə müqayisədə daha zəngin və əsaslı kriteriyalara malikdir. Bu tezisin daxilində bədii dilin linqvistik özəllikləri ayrıca yer tutur. Yəni ədəbi-bədii dilin fəlsəfi-elmi dillə münasibətlərinin tədqiqi xüsusi aktual problem kimi qarşıda durur.



İkincisi, fəlsəfi, elmi və bədii təfəkkürün azərbaycançılıq ideyası məhvəri üzrə dövrləşdirilməsi müasir mərhələdə azərbaycanşünaslığın inkişafında çox əhəmiyyətli yer tutmalıdır. Bu baxımdan akademik İsa Həbibbəylinin tədqiqatında Azərbaycanda bədii təfəkkürün dövrləşdirilməsi təcrübəsinin təhlili və onun əsasında yeni dövrləşdirmə konsepsiyasının hazırlanması bütövlükdə humanitar elm üçün vacib hadisədir.

Problemin bu aspekti üzərində bir qədər ayrıntılı dayanaq.

## Təcrübənin təhlili

Heç bir təcrübənin vahid və mütləq obyektiv təhlili yoxdur. Təcrübəyə hansı kriteriyalarla yanaşıldığının əhəmiyyəti çoxdur. Azərbaycan ədəbiyyat tarixində də bədii təfəkkürün dövrləşdirilməsinə fərqli kriteriyalar prizmasında yanaşmalar özünü göstərmişdir. Onları uzunmüddətli zaman-məkan kontinuumunda elmi təhlil etmək olduqca əhəmiyyətlidir. Çünki mövcud təcrübə elmi problemin gerçək mənzərəsini yaradır ki, onun fonunda məsələnin daha adekvat təkamül xəttini müəyyən etmək şansı meydana gəlir. Buna görədir ki, akademik İsa Həbibbəylinin Azərbaycan ədəbiyyat tarixinin dövrləşməsi təcrübəsini təhlil etməsi çox əhəmiyyətli addımdır.

Burada təhlilin bütün detalları üzərində dayanmaq və onu tam olaraq zaman xronologiyasında qiymətləndirmək imkansızdır. Bir sıra özəlliklər üzərində dayana bilərik. Ümid edirik ki, onların işığında "Azərbaycanşünaslıq üçün nə üçün azərbaycançılıq önəmlidir?" sualına cavab axtarışlarının "koqnitiv spektrini" müəyyən etmək olar.

Hər şeydən öncə, bədii təfəkkürün tarixi dövrləşdirilməsi üçün onun proses olaraq zaman-məkanda dinamik mövcudluğunu qəbul etmək gərəkdir. Yəni söhbət Azərbaycan bədii təfəkküründən gedirsə, onun dövrləşdirilməsinə hər hansı yanaşmanın təməlində belə bir idraki fenomen uzun müddət Azərbaycan elmi təfəkküründə xüsusi olaraq mövcud olmalıdır. Buna görə də Azərbaycançılıq ideya və konsepsiya kimi bəzilərinin Azərbaycan fəlsəfi-elmi tarixini XIX əsrin ikinci yarısından başladığı kimi iddialara düşməsinin əsassız olduğunu təsdiq edir. Elmi olaraq elə təkamül kriteriyaları təhlil edilməlidir ki, hər şeydən öncə ciddi elmi əsasda "Azərbaycan bədii təfəkkür tarixi vardır" müddəasını ortaya qoysun. Azərbaycan elmi təfəkkürü artıq bu vəzifənin öhdəsindən şərəflə gəlmişdir. Həmin sırada azərbaycançılıq ideyası, prinsipi və konsepsiyasının rolu xüsusidir!

Digər əhəmiyyətli məqam İ.Həbibbəylinin əsərində ədəbiyyat taixinin dövrləşdirilməsinə yanaşmada əsas kriteriyaları önə çəkməsi ilə bağlıdır. Məsələn, müəllif vurğulayır ki, "akademik Nizami Cəfərovun irəli sürdüyü elmi konsepsiya bu mühüm işin nəzəri əsaslarını müəyyənləşdirmək baxımından əhəmiyyətlidir". Bu tezis əsərdə aşağıdakı kimi əsaslandırılır: "Əvvəla, Nizami Cəfərov Azərbaycan ədəbiyyatı tarixini dövrləşdirmək üçün nəzərə alınması zəruri olan meyarları müəyyənləşdirmişdir: ədəbi-estetik, etnik-kulturoloji və ictimai-siyasi proseslərə əsaslanmaq. İkincisi, Nizami Cəfərov konkret olaraq Azərbaycan ədəbiyyatı tarixinə dair özünün dövrləşdirmə modelini də təqdim etmişdir: 1. V-XII əsrlər Azərbaycan ədəbiyyatı, yaxud Azərbaycan ədəbiyyatının qədim dövrü. 2. XIII-XVI əsrlər Azərbaycan ədəbiyyatı, yaxud Azərbaycan ədəbiyyatının orta dövrü. 3. XVII əsrdən XX əsrin əvvəllərinə qədərki Azərbaycan ədəbiyyatı, yaxud Azərbaycan ədəbiyyatının yeni dövrü. 4. XX əsrin əvvəllərindən sonrakı Azərbaycan ədəbiyyatı tarixinin müasir dövrü".

Bu cür yanaşma əsasında İ.Həbibbəylinin gəldiyi ümumi qənaət həm əsaslı, həm də obyektivdir. Müəllif yazır: "...təqdim olunan dövrləşdirmə ana xətləri etibarilə Azərbaycan ədəbiyyatının keçdiyi keşməkeşli yolun əsas inkişaf mərhələlərini özündə əhatə edir. Və ən yaxşı cəhətlərdən biri də ondan ibarətdir ki, Nizami Cəfərovun dövrləşdirməsində ideoloji baxışlar deyil, ədəbi-estetik meyarlar və nəticə etibarilə azərbaycançılıq dəyərləri əsas yer tutur. Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsinin elmi-nəzəri təsnifatının bünövrəsi kimi bu format əhəmiyyətlidir".

Biz tarixi xronologiyaya (əsərdə tarixi xronologiya dəqiq nəzər alınmışdır) baş vurmadan onu ifadə edək ki, əsərdə XX əsrin 90-cı illərində Azərbaycan ədəbiyyatının yenidən dövrləşdirilməsi istiqamətində konsepsiyalar axtarışının aparıldığı xüsusi vurğulanır. Bu bağlılıqda N.Cəfərovun tədqiqatları ilə yanaşı, Mir Cəlal, Y.Qarayev, H.Araslı, N.Qəhrəmanlı, Ə.Səfərli, Ş.Alışanlı və digər alimlərin çox qiymətli tədqiqatlarına müraciət olunur.

Bir daha qeyd edək ki, bizi ədəbiyyat tarixinin dövrləşdirilməsinin ümumi süjeti fəlsəfi aspektdə maraqlandırır və konkret tədqiqatların detallarına baş vura bilmirik (onu peşəkar ədəbiyyatçılar edə bilərlər). Ona görə də akademik İ.Həbibbəylinin tam yerində Yaşar Qarayevdən gətirdiyi bir iqtibasla kifayətlənirik: "Əlbəttə, gerçəkliyin öz təsnifatını elmə və tarixə olduğu kimi gətirmək lazımdır: necə var, elə. Bu mərhələlərdən birini, yaxud digərini tarixin arxivinə vermək yolu ilə yox, bəlkə hər birini olmuş, baş vermiş real keçmişimizin özü kimi, bütün təzadları, faciəsi, səhvləri və uğurları ilə birlikdə, bədii idrakımızın və ictimai əxlaqımızın təcrübəsi və dərsləri kimi öyrənmək yeganə doğru yoldur. Lakin təəssüf ki, bütöv-bütöv dövrləri, yüzilləri, hətta eraları tədqiqatda əhatə olunan tarixlərdən çıxdaş eləmək bizim mövcud humanitar - filoloji ənənələrin ən sürəkli əyintilərindən biri olub".

Bizcə, Y.Qarayev çox uğurlu yanaşma etmişdir və İ.Həbibbəyli də bu məqamı dərindən dərk etmişdir! Bu tezisimizi əsərin "Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsi üzrə axtarışlar, ədəbiyyat tarixçiliyində yeni mərhələ, Azərbaycan ədəbiyyatı tarixinin dövrləşdirilməsinin elmi təsnifatına doğru, Azərbaycan ədəbiyyatı tarixinin yenidən dövrləşdirilməsi zərurəti - Azərbaycançılıq konsepsiyası, Azərbaycan ədəbiyyatı tarixinin inkişaf mərhələləri" punktları üzrə vahid məntiqi müstəvidə struktur-funksional bütövləşdirilməsi təsdiq edir.

**(ardı var)**

**Füzuli QURBANOV**
**fəlsəfə elmləri doktoru**

## Naxçıvan Bölməsində "Klassik Azərbaycan ədəbiyyatının tanınmış siması: Xaqani Şirvani" mövzusunda elmi konfrans

**"Klassik Azərbaycan ədəbiyyatının tanınmış siması: Xaqani Şirvani" mövzusunda elmi konfrans keçirilib.**



Konfransı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Xaqani Şirvaninin 900 illik yubileyinin qeyd olunması haqqında imzalanmış Sərəncam milli-mənəvi dəyərlərə, klassik ədəbi irsə göstərilən yüksək diqqət və qayğının bariz nümunəsidir. O vurğulayıb ki, dövlət başçısının elmə, mədəniyyətə və ədəbiyyata göstərdiyi ardıcıl dəstək Azərbaycan elminin və humanitar fikrinin inkişafına güclü təkan verir.

Akademik qeyd edib ki, Xaqani Şirvani yalnız Azərbaycan ədəbiyyatının deyil, ümumilikdə Şərq bədii fikrinin ən parlaq nümayəndələrindən biri kimi əsrlər boyu öz aktuallığını qoruyub saxlamışdır. Onun zəngin poetik irsi, dərin fəlsəfi düşüncələri, insanın mənəvi kamilliyi ilə bağlı irəli sürdüyü ideyalar bu gün də müasir cəmiyyət üçün mühüm əhəmiyyət daşıyır. İsmayıl Hacıyev diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə klassik irsin öyrənilməsi, nəşri və təbliği istiqamətində genişmiqyaslı işlər həyata keçirilir, bu isə milli kimliyin və ədəbi yaddaşın qorunmasına xidmət edir.

Daha sonra İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Əbülfəz Quliyev "Xaqani Şirvani poeziyasında türklər, türk dili və Oğuz türk mədəniyyəti" mövzusunda məruzə edib. Məruzədə bildirilib ki, Xaqani yaradıcılığında türklük anlayışı yalnız etnik mənsubiyyət deyil, eyni zamanda idarəetmə mədəniyyəti və ədalət fəlsəfəsi kimi təqdim olunur. Oğuz türklərinin zəngin mədəni irsi şairin poeziyasında geniş və dolğun şəkildə əksini tapıb. Əbülfəz Quliyev, həmçinin çıxışında Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Xaqani Şirvaninin 900 illik yubileyinin qeyd edilməsi haqqında imzaladığı Sərəncamın klassik ədəbi irsin öyrənilməsi və təbliği baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

İncəsənət, Dil və Ədəbiyyat İnstitutu Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya elmləri doktoru, dosent Ramiz Qasımov "Xaqani Şirvaninin Azərbaycan ədəbiyyatında yeri və rolu" mövzusunda məruzə edərək şairin "Mədain xərabələri", "Töhfətül-İraqeyn" və "Qəsidəyi-şiniyyə" kimi əsərlərini təhlil edib. Qeyd olunub ki, Xaqani yaradıcılığında kamil insan ideyası mühüm yer tutur. Həmçinin bildirilib ki, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəylinin redaktorluğu ilə nəşr edilən 10 cildlik "Azərbaycan ədəbiyyatı" kitabının II cildində Xaqani Şirvani də yer alıb.

Naxçıvan Müəllimlər İnstitutunun əməkdaşı, pedaqogika elmləri doktoru, professor Kamal Camalov "Xaqani Şirvani poeziyasında elm və təhsil məsələləri" mövzusunda məruzə edib. Bildirilib ki, şair insan ruhunun ən dərin qatlarını yüksək poetik ustalıqla ifadə etmiş, elm və təhsilin cəmiyyət həyatındakı roluna xüsusi önəm vermişdir.

Konfransda həmçinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun elmi işlər üzrə direktor müavini, filologiya üzrə fəlsəfə doktoru, dosent Elxan Məmmədov "Şair Asim Yadigarın Xaqani poeması" mövzusunda məruzə edib. Məruzədə poemanın bədii xüsusiyyətləri təhlil olunaraq onun axıcı üsluba və ritmik məsnəvi qafiyə sisteminə malik olduğu qeyd edilib. Bildirilib ki, əsərdə Xaqani obrazı hadisələrin mərkəzində təqdim olunur və şairin şəxsi keyfiyyətləri dolğun şəkildə canlandırılır.

# Milli onomastika irsimizin rəqəmsal mühitdə tədqiqi

**Müasir dövrün texnoloji transformasiyaları fonunda AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu milli dilçilik elminin ənənəvi metodologiyasını innovativ yanaşmalarla sintez edərək, süni intellekt və kompüter dilçiliyi istiqamətində fundamental və sistemli araşdırmaları uğurla davam etdirməkdədir. Rəqəmsallaşma dövründə dilçilərin qarşısında ana dilimizi bütün aspektlərdə tədqiq etmək kimi son dərəcə məsuliyyətli bir vəzifə durur.**

Elmi müəssisənin Monitorinq şöbəsinin fəaliyyəti sayəsində aparılan müşahidələr və əldə olunan elmi nəticələrin sistemləşdirilməsi və çap edilməsi ilə yanaşı, dilimizin tarixi təkamül prosesləri, müasir Azərbaycan dili və nitq mədəniyyətinin aktual məsələləri geniş elmi müstəvidə araşdırılır. Deyə bilərəm ki, təkcə son üç ildə Dilçilik İnstitutunda nəzəri və tətbiqi dilçiliyimizə həsr olunmuş 150-dən çox tədqiqat işi aparılmış, kitablar, lüğətlər və danışıq kitabçaları çap edilmişdir. Bu nəşrlərin demək olar ki hamısı fundamental tədqiqat əsərləridir və dilçiliyin ən önəmli sahələrinə, dialektologiya və onomastikaya həsr edilmişdir.

Məlumdur ki, bu gün artıq elektron informasiya reallıqları və süni intellektin yaratdığı imkanlar həyatımızın və elmimizin bütün sahələrinə daxil olmuşdur. Necə deyərlər, əsl dövr indiyə qədər mövcud olan stereotiplərdən uzaqlaşmışdır. Çox yaxşı haldır ki, həm ümumilikdə Azərbaycan Milli Elmlər Akademiyası, həm də konkret olaraq Dilçilik İnstitutu bu məsələni zamanında qiymətləndirərək prosesə lazımi reaksiya verə bilmişdir. Məşhur bir deyim var: "Biz qarşıdan gələn döyüşə əsgər kimi yox, zabit kimi girəcəyik".

Hazırda Dilçilik İnstitutunun Onomastika şöbəsinin fəaliyyətinin üçüncü ilində görülən işlər öz fundamental nəticələrini verməkdədir. Bu qısa müddət ərzində şöbə əməkdaşlarının gərgin əməyi sayəsində onomastikanın müxtəlif istiqamətlərini əhatə edən 4 dəyərli kitab çap edilərək elmi ictimaiyyətə təqdim edilib, daha 5 kitab isə son çap mərhələsindədir. Bunlardan ikisi Dilçilik İnstitutunun hesabına, üçü isə Beynəlxalq Türk Akademiyasının vəsaiti hesabına çap olunacaqdır. Bu kitablar Azərbaycanın, Qafqazın və Yaxın Şərqin türk mənşəli toponimlərinin izahlı lüğətləridir. Əsas tədqiqat istiqamətimiz Qərbi Azərbaycanın və işğala məruz qaldıqdan sonra azadlığına qovuşmuş torpaqlarımızın onomastik vahidləridir. Bundan başqa, şöbə olaraq İnstitutumuzda qeyd olunan mövzulara həsr olunmuş elmi konfrans və sessiyaların təşkilində fəal iştirak edirik. Respublikamızda və xaricdə dərc olunan çoxsaylı elmi jurnallarda bu mövzuya həsr olunmuş məqalələrimiz və məruzələrimiz dərc edilmişdir. Dəfələrlə həm elmi konfranslarda, həm də müxtəlif televiziya proqramlarında və internet saytlarında mövzu ilə bağlı çıxışlarımız olmuşdur.

Bəli, deyə bilərik ki, bütövlükdə AMEA Dilçilik İnstitutu dövrlə ayaqlaşan, müasir çağırışlara cavab verən müəssisədir. Onomastika şöbəsində bu gün Güney Qafqazın və Yaxın Şərqin toponimləri tam şəkildə lüğətə salınmışdır. Hal-hazırda bu lüğətlərin elektron bazasını yaratmaq istiqamətində çalışmaydayıq.

Bundan başqa, Türk dünyasının areal toponimlərini hazırlamışıq və bu toponimlər lüğətini ortaq türk əlifbası ilə çap etdirmək fikrindəyik. Buraya Azərbaycan Respublikasının və Güney Azərbaycanın bəzi mikrotoponimləri də daxil olacaqdır.

